Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

Azərbaycan Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# Akademik
# İSA HƏBİBBƏYLİ
# (Həbibbəyli İsa Əkbər oğlu)

***B i b l i o q r a f i y a***

**BAKI–2018**

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Elmlər Akademiyası
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

Azərbaycan
Milli Kitabxanası

*Remarkable people of Azerbaijan*

# Academician
# İSA HABIBBAYLI
# (Habibbayli Isa Akbar oghlu)

***B i b l i o g r a p h y***

**BAKU–2018**

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Выдающиеся деятели Азербайджана*

# Академик
# ИСА ГАБИББЕЙЛИ
# (Габиббейли Иса Акбер оглы)

***Б и б л и о г р а ф и я***

**БАКУ–2018**

**KBT** Я19:Ш+Ш5(2=Аз)7-4.4я1
**UOT** 016:821.512.162

**Elmi redaktorlar:** **Teymur Kərimli,**
*AMEA-nın həqiqi üzvü,*
*filologiya elmləri doktoru, professor*
**Kərim Tahirov,**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Ön sözün müəllifləri:** **Kamran Əliyev,**
*AMEA-nın müxbir üzvü*
**Məmməd Əliyev,**
*filologiya elmləri doktoru,*
*professor*

**Tərtibçi müəlliflər:** **Zakirə Əliyeva,**
*filologiya üzrə fəlsəfə doktoru*
**Ağahüseyn Şükürov,**
*filologiya üzrə fəlsəfə doktoru*

**Akademik İsa Həbibbəyli** (Həbibbəyli İsa Əkbər oğlu): biblioqrafiya /Tərt.-müəl.: Z.Əliyeva, A.Şükürov; elmi red. T.Kərimli, K.Tahirov; ön söz. müəl.: K.Əliyev, M.Əliyev.- Bakı, 2018.- 616 s.

Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib etdiyi "Akademik İsa Həbibbəyli" biblioqrafik göstəricidə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik İsa Əkbər oğlu Həbibbəylinin həyat və yaradıcılığına aid zəngin material öz əksini tapmışdır.

ISBN 978 9952 476 61 3

**©Azərbaycan Milli Kitabxanası, 2018**

# Naxçıvan Muxtar Respublikasının elm, mədəniyyət və ədəbiyyat xadimlərinə fəxri adların verilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan elmi, mədəniyyəti və ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə Naxçıvan Muxtar Respublikasının elm, mədəniyyət və ədəbiyyat xadimlərindən bir qrupuna aşağıdakı fəxri adlar verilsin:

**- "Əməkdar elm xadimi" fəxri adı – Həbibbəyli İsa Əkbər oğluna.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı, 9 oktyabr, 1999-cu il*

# İ.Ə.Həbibbəylinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə İsa Əkbər oğlu Həbibbəyli "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 16 oktyabr, 2007-ci il*

# İ.Ə.Həbibbəylinin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında böyük xidmətlərinə görə İsa Əkbər oğlu Həbibbəyli "Şərəf" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 avqust, 2009-cu il*

## Göstərici haqqında

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından hazırladığı bu biblioqrafiya Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik İsa Əkbər oğlu Həbibbəyliyə həsr edilmişdir. İndiyədək görkəmli alim haqqında bir neçə biblioqrafiya tərtib olunmuşdur. Son on iki il ərzində akademik haqqında kifayət qədər əlavə materialların çap olunduğunu nəzərə alan M.F.Axundov adına Milli Kitabxana “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından daha mükəmməl bir fundamental biblioqrafiya hazırlamağı qərara almışdır. Oxuculara təqdim olunan bu yeni biblioqrafiya daha da təkmilləşdirilmiş, yeni bölmələr və yarımbölmələr əlavə edilmişdir. Biblioqrafik göstərici son on iki ilin materialları da daxil olmaqla 1964-2018-ci illəri əhatə edir.

Biblioqrafiyada İsa Həbibbəylinin kitabları, dövri mətbuatda, məcmuələrdə çap olunmuş əsərləri, elmi-tənqidi və publisistik məqalələri, rus və başqa dillərdə çap olunmuş əsərləri, tərcümələri, redaktə etdiyi kitablar, elmi məsləhətçisi, elmi rəhbəri və opponenti olduğu elmi işlər, habelə görkəmli alimin həyat və yaradıcılığı haqqında materiallar öz əksini tapmışdır. Biblioqrafik göstəricidə ədəbiyyat xronoloji qaydada qruplaşdırılmış, daxildə isə əlifba sırası gözlənilmişdir.

“Əlavələr” hissəsində “Akademik İsa Həbibbəylinin nəsil şəcərəsi” və “Akademik İsa Həbibbəyli təsviri sənətdə” bölmələrində toplanan materiallar biblioqrafiyanın əhəmiyyətini daha da artırır. İnanırıq ki, bu sənədlər oxucuların böyük marağına səbəb olacaqdır.

Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə biblioqrafiyanın sonunda çox zəngin məlumat aparatı – köməkçi göstəricilər verilmişdir. Buraya akademikin əsərlərinin və haqqında yazan

müəlliflərin əlifba göstəriciləri, redaktoru və tərtibçisi olduğu əsərlərin sərlövhə göstəriciləri və s. daxildir.

Göstərici haqqında rəy və təkliflərini bizə göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, arzu və iradlarını M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

**Ünvan**: AZ-1000, Bakı şəhəri, Xaqani küçəsi, 57.

E-mail: contact@anl.az.

# About the index

The bibliography compiled by Azerbaijan National Library from the series of “Eminent personalities of Azerbaijan” is dedicated to the Vice-president of Azerbaijan National Academy of Sciences, Doctor of philological sciences, professor, Honored scientist, academician Isa Akbar oglu Habibbayli. So far, several bibliographies about the outstanding scholar have been compiled. Given the fact that there have been published enough additional materials about the academician over the last twelve years, National Library named after M.F.Akhundov decided to publish a more perfect fundamental bibliography from the series of “Eminent personalities of Azerbaijan”. This new bibliography is further improved and new sections and subsections have been added. The bibliographic index covers the years of 1964-2018 including the materials of the last twelve years.

The bibliography contains Isa Habibbayli’s books, his works, scientific-critical and journalistic articles published in periodicals, his works and translations in Russian and other languages, the books edited by him, or the books that he is the scientific consultant, supervisor or the opponent, as well as the materials about life and work of the outstanding scholar. The literature in the bibliographic index has been arranged chronologically, while alphabetical order has been used within it.

In the “Appendix”, materials collected in “The family tree of the academician Isa Habibbayli” and “Academician Isa Habibbayli in the Fine Art” sections further enhance the importance of the bibliography. We believe that those documents will be of great interest to readers.

In order to facilitate the use of the resource, auxiliary indexes have been provided at the end of the bibliography. It includes the alphabetical index of the academician’s works and the authors

who have written about him, title index of the works edited or compiled by him and etc.

We would like to express our gratitude to the specialists and readers in advance for their feedbacks and comments about the index and kindly ask you to send your comments and remarks to the address of the Azerbaijan National Library named after M.F.Akhundov.

**Address:** AZ-1000, Baku, Khagani str. 57.

**E-mail:** contact@anl.az

# Об указателе

Библиография, подготовленная Азербайджанской Национальной Библиотекой им. М.Ф.Ахундова в серии «Выдающиеся деятели Азербайджана», посвящена вице-президенту Национальной Академии Азербайджана, доктору филологических наук, профессору, заслуженному деятелю науки, академику Исе Акпер оглы Габиббейли.

До настоящего времени было составлено несколько библиографий об ученом. Принимая во внимание достаточное количество материалов, опубликованных об академике в последние двенадцать лет, Азербайджанская Национальная Библиотека им. М.Ф.Ахундова приняла решение об издании в серии «Выдающиеся деятели Азербайджана» более полной и фундаментальной библиографии, посвященной академику.

Новая библиография представляет собой усовершенствованное, дополненное новыми отделами и подразделами, издание. В библиографический указатель включены материалы последних двенадцати лет. В целом указатель охватывает временной отрезок с 1964 по 2018 год.

В библиографии отражены книги Исы Габиббейли, его труды, опубликованные в периодической печати, научно-критические и публицистические статьи, его произведения на русском и других языках, переводы, книги и работы, редактором и научным консультантом, научным руководителем и оппонентом которых он являлся, а также материалы о жизни и творчестве выдающегося ученого. В библиографическом указателе литература составлена по хронологическому принципу. Во внутренней же структуре соблюдается алфавитный порядок.

В разделе «Дополнения» представлены рубрики «Родословная академика Иса Габибейли», и «Академик Иса Габибейли в изобразительном искусстве». Материалы,

представленные в них, существенно обогатили библиографию. Надеемся, что данные материалы вызовут повышенный интерес у читателей.

Для облегчения работы с указателем, в конце библиографии представлен весьма значимый информационный аппарат – вспомогательные указатели. Здесь расположен алфавитный указатель трудов академика и авторов, писавших о нем, а также алфавитный указатель заглавий произведений, редактором и составителем он являлся и проч.

Заранее выражаем благодарность специалистам и читателям за пожелания и предложения. Их можно высылать по адресу Азербайджанской Национальной Библиотеки им. М.Ф.Ахундова.

**Адрес:** AZ-1000, гор. Баку, ул.Хагани, 57.

**E-mail:** contact@anl.az.

## Böyük ömrün illəri və əsərləri

Akademik İsa Əkbər oğlu Həbibbəyli Azərbaycan ədəbiyyatşünaslığının və ictimai fikrin inkişafında xüsusi yeri olan, özünün orijinal axtarışları ilə elmimizə sanballı töhfələr vermiş görkəmli alimlərimizdəndir. Böyük ədəbiyyatşünas alimin, tanınmış ədəbiyyat tarixçisi və nəzəriyyəçinin elmi araşdırmaları Azərbaycanda ədəbiyyat haqqında elmin daha da inkişaf etdirilməsinə, ictimai fikrin əsas problemlərinin araşdırılıb ümumiləşdirilməsinə uğurla xidmət edir.

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi İsa Həbibbəyli 1949-cu il oktyabrın 16-da Şərur rayonunun Danzik kəndində (etimoloji mənası Dan yeri) müəllim ailəsində anadan olmuşdur. Atası Əkbər Əli bəy oğlu Həbibbəyli doğma kəndində 50 ildən artıq müəllimlik etmiş, tanınmış ziyalılardan biri olmuşdur.

İsa Həbibbəyli ilk təhsilini Şərur rayonundakı Danzik kənd orta məktəbində almış, 1966-cı ildə Oğlanqala (keçmiş Ulya Noraşen) kənd orta məktəbini bitirmişdir. Hələ orta məktəbdə oxuduğu illərdə “Pambıqçı uşaqlar” adlı ilk məqaləsi “Azərbaycan pioneri” qəzetində (1964), daha sonra isə məqalə və şeirləri “Azərbaycan gəncləri”, “Şərq qapısı”, “İşıqlı yol” qəzetlərində çap olunmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının Azərbaycan dili və ədəbiyyatı fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir (1971). Ali məktəb illərində Tələbə Elmi Cəmiyyətinin sədri olmuş, Bakıda, Naxçıvanda və Tbilisidə tələbə elmi konfranslarında maraqlı məruzələrlə çıxış etmişdir. Dövri mətbuatda ilk elmi məqalələri və şeirləri çap olunmuşdur.

Zəhmətsevərlik, nikbinlik, dünyaya bağlılıq gənc İsa Həbibbəylini elm adlı sahilsiz bir ümmanda yelkənini açmağa sövq

etmişdir. Naxçıvanda 1970-ci ildə keçirilmiş "Elm günləri"ndə İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndəsi, dərin zəka sahibi və alicənab şəxsiyyət, akademik Məmməd Cəfər Cəfərovla yaxından tanış olması onun ömür yolunu qəti şəkildə, birdəfəlik müəyyənləşdirmişdir. Beləliklə, dövri mətbuatda şeirləri və məqalələri ilə diqqəti cəlb edən İsa Həbibbəyli hələ tələbə ikən elm yoluna üstünlük verməyi qərara olmuşdur.

Yaddaş dünyasında və mənəvi təkamülündə dərin izlər buraxmış böyük elm nəhəngi Məmməd Cəfər Cəfərovun şəxsiyyətinə dərin hörmət İsa Həbibbəylinin sonralar yazdığı elmi əsərlərində, xüsusən də böyük alimə həsr edilmiş məqalələrində qabarıq şəkildə ifadə olunur.

Akademik Məmməd Cəfər Cəfərov faktoru İsa Həbibbəylini təkcə elmi yaradıcılığa həvəsləndirməmiş, həm də onun sadəlik və müdrikliyi özündə cəmləşdirən şəxsiyyət kimi formalaşmasına da nüfuz etmişdir. O, ustadı Məmməd Cəfər Cəfərovu böyük sadəlik nümunəsi kimi qəbul etmişdir. İsa Həbibbəylinin fikrincə, "sadəliyin nə qədər böyük mənəvi sərvət olduğunu akademik Məmməd Cəfər Cəfərova məxsus klassik sadəlik isbat etdi. Yalnız özünü dərk etmiş, şəxsiyyət etibarilə kamil olan insanlar bu qədər sadə ola bilərlər".

İsa Həbibbəyli 1973-cü ildə Nizami adına Ədəbiyyat İnstitutunda akademik Məmməd Cəfər Cəfərovun rəhbərlik etdiyi "Ədəbiyyat nəzəriyyəsi" şöbəsinə aspiranturaya qəbul olur. 1975-ci ildən Naxçıvan Dövlət Pedaqoji İnstitutunun "Ədəbiyyat" kafedrasında müəllimlik edərkən elmi konfranslarda maraqlı məruzə və çıxışları ilə diqqəti cəlb edir. Müxtəlif elmi konfranslarda "XX əsr Azərbaycan romantik lirikasında Füzuli ənənələri", "Qori seminariyası və Naxçıvan ziyalıları", "Məhəmməd Hadi lirikasının sənətkarlıq xüsusiyyətləri"mövzularındakı məruzələri onun elmi bacarığı tarixi-nəzəri axtarışlarından xəbər verirdi.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiy-

yat İnstitutunun aspiranturasında oxuduğu illərdə bu elm məbədində çalışan klassik ədəbiyyatşünaslardan Məmməd Cəfər Cəfərov, Mirzağa Quluzadə, Yaşar Qarayev, Əziz Mirəhmədov, Kamal Talıbzadə, Kamran Məmmədov və başqaları ilə yaxın ünsiyyətdə olması gənc tədqiqatçının elmi dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır. Məhz Məmməd Cəfər Cəfərova məxsus müdriklik, dərinlik və sadəlik, Abbas Zamanovun vətəndaşlıq mövqeyi, Əziz Mirəhmədovun dəqiqliyi və məsuliyyəti İsa Həbibbəylinin elmi fəaliyyətində aydın surətdə ifadə olunur. Geniş elmi dünyagörüş, nəciblik və xeyirxahlıq, məsuliyyət və sədaqət, habelə yorulmaz fəaliyyət İsa Həbibbəylinin xarakterinin əsas xüsusiyyətlərini özündə cəmləşdirir.

İsa Həbibbəyli 1980-ci il tarixdə Nizami adına Ədəbiyyat İnstitutunun Dissertasiya Şurasında "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir. Azərbaycan ədəbiyyatının çox zəngin və maraqlı bir dövrünə həsr edilmiş həmin tədqiqat işi özünün elmi sanbalı, nəzəri cəhətdən orjinallığı və yeniliyi ilə görkəmli ədəbiyyatşünaslarımız Məmməd Cəfər Cəfərov, Kamal Talıbzadə, Əziz Mirəhmədov, Abbas Zamanov, Yaşar Qarayev və professor Kamran Məmmədovun diqqətini cəlb etmiş, tədqiqat yüksək qiymətləndirilmişdir.

Böyük həvəs və fədakarlıqla XX əsrin əvvəllərinin ədəbi-ictimai fikrinə quymət verən İsa Həbibbəyli dövrün və zamanın tələbi baxımından Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq kimi görkəmli ədəbi simaların yaradıcılığını diqqətlə öyrənmiş, romantik şeirin bədii-estetik mahiyyətini, ictimai-fəlsəfi qayəsini və sənətkarlıq xüsusiyyətlərini elmi-nəzəri şəkildə açıb göstərməyə müvəffəq olmuşdur. Onun fikrincə, XX əsrin əvvəllərində yaranan ictimai-siyasi şəraitlə əlaqədar olaraq Azərbaycan romantik lirikasının mövzu dairəsi genişlənmiş, yeni poetik prinsiplər formalaşmağa başlamışdır. Şəxsiyyətin mənəvi aləmi, ideal insan və ali ictimai cəmiyyət axtarışları, bəşəri ideal-

lara müraciət bu dövr romantik lirikasının aparıcı mövzularına çevrilmişdir. Romantik lirikanın ictimai əhəmiyyətini üzə çıxaran tədqiqatçı yazırdı: "Romantik estetikada xəyal, ideal prinsiplər cəmiyyətdən uzaqlığa aparan abstrakt meyillər kimi başa düşülmüşdür. Əslində isə romantik lirikada maarifçi-demokratik ideyalar geniş yayılmış, romantiklər yeni şəraitdə özlərinə qədər ədəbiyyatımızda mövcud olan ədəbi ənənələrin yaradıcı şəkildə layiqli davamçıları kimi çıxış etmişlər".

"Romantik lirikanın imkanları" adlı monoqrafiyasında (1984) diqqəti cəlb edən və İsa Həbibbəylinin elmi yaradıcılığına xas olan polemika mədəniyyəti, yüksək intellektual səviyyə, güclü ümumiləşdirmə bacarığı və yüksək nəzəri hazırlıq gənc alimin mühüm elmi nəticələrə gəlməsinə imkan vermişdir. İsa Həbibbəyli ilk dəfə olaraq həmin dövrdə poeziyamızda sonet, marş, himn, şərqi, türkü və sair poetik formaların yaranmasını müşahidə etmiş, həmin janrların poetikasından yüksək elmi səviyyədə söz açmışdır. İsa Həbibbəyli romantik lirikada üslub məsələsini önə çəkmiş və ayrı-ayrı sənətkarların fərdi üslubunun ilk dəfə elmi təsnifatını vermişdir. Azərbaycan ədəbiyyatşünaslıq elmində birinci dəfə olaraq o, Hüseyn Cavidin romantik-fəlsəfi, Məhəmməd Hadinin romantik-publisist, Abbas Səhhətin lirik-romantik, Abdulla Şaiqin romantik-realist üslubda yazıb-yaratdığını müəyyən etmiş və nəzəri cəhətdən aydınlaşdırmağa nail olmuşdur. Bütün bunlar Azərbaycan ədəbiyyatşünaslığında ümumiyyətlə poetik formalar – janrlar və fərdi üslublar haqqında ciddi elmi-nəzəri tədqiqatlardan biri kimi mühüm əhəmiyyətə malikdir.

Akademk İsa Həbibbəyli Azərbaycan ədəbiyyatşünaslığında, elmi-ədəbi mühitində görkəmli Cəlil Məmmədquluzadəşünas alim kimi qəbul olunur. Bu nəhəng və parlaq simanın ədəbi və publisistik fəaliyyəti, mühiti və müasirləri problemi ədəbiyyatşünas alimi uzun illər ərzində dərindən məşğul etmişdir. O, elmi fəaliyyətinin böyük bir mərhələsini Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığına həsr etmişdir. Böyük demokrat Cəlil

Məmmədquluzadənin zəngin həyatı və çoxcəhətli fəaliyyəti ilə bağlı onun "Cəlil Məmmədquluzadə" (1987), "Zamanın dühası" (1993), "Seçkin Azərbaycan yazarı Cəlil Məmmədquluzadə" (1994) və başqa əsərləri elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Doktorluq dissertasiyası kimi müdafiə etdiyi "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" adlı monoqrafik tədqiqatı isə (1996) təkcə İsa Həbibbəylinin yox, bütövlükdə Azərbaycanda ədəbiyyatşünaslıq elminin mühüm nailiyyətlərindən biri sayılmağa layiq olan sanballı elmi əsərdir.

İsa Həbibbəylinin tədqiqat işinin əsas orijinallığı onun Cəlil Məmmədquluzadə yaradıcılığına yeni yanaşma tərzində, əldə etdiyi zəngin faktları, nadir və çoxsaylı arxiv materiallarını dərin elmi şərhləri ilə birlikdə ilk dəfə tədqiqata cəlb etməsindədir. Ədəbiyyatşünas alimin bu tədqiqatı "Azərbaycanda XIX əsrin sonları və XX əsrin əvvəlləri ədəbi prosesinə ümumiləşdirilmiş yeni bir baxışı" (Yusif Seyidov) ifadə edirdi. İsa Həbibbəyli bu sanballı elmi əsərini yazmaqla Bakı, Tiflis, Təbriz, Kiyev, Ərzurum, Odessa, İrəvan, Naxçıvan, Qori, Yasnaya Polyananın arxiv, muzey və kitabxanalarından əldə etdiyi yeni materiallara və sənədlərə istinad edərək, tənqidi realizm ədəbi cərəyanının yaradıcısı Cəlil Məmmədquluzadənin mənalı və ibrətamiz həyat yolunun, çoxcəhətli ədəbi-ictimai fəaliyyətinin, zəngin və bənzərsiz bədii irsinin, çoxsaylı müasirləri ilə əlaqələrinin geniş və aydın mənzərəsini yaratmaqdan ibarət mühüm bir vəzifəni şərəflə yerinə yetirmişdir. O, bu yolun başlanğıcının ədibin ailə mühitindən və tələbəlik dünyasından keçdiyini qeyd edərək yazır ki, gənc Cəlil Məmmədquluzadə ilk təhsil illərində ərəb-fars dillərini öyrənmiş, islam və Şərq tarixinə və ədəbiyyatına, rus mədəniyyətinə dərindən bələd olmuş, mütaliə vərdişlərinə yiyələnmiş, bunların sayəsində isə özünün əxlaqi-mənəvi qənaətləri müəyyənləşmişdir. İsa Həbibbəyli haqlı olaraq bu fikirdədir ki, Cəlil Məmmədquluzadənin şəxsiyyətinin və dünyagörüşünün formalaşmasında Qori Müəllimlər Seminariyası mühiti xüsusi rol

oynamış, onun gələcək ictimai-siyasi, ədəbi-pedaqoji fəaliyyətində təkanverici bir amil olmuşdur.

XIX əsrin 70-90-ci illərini və XX əsrin əvvəllərini Azərbaycan maarifçiliyinin xüsusi inkişaf mərhələsi kimi xarakterizə edən İsa Həbibbəyli bu dövrin məktəblərinin ədəbiyyatın inkişafındakı rolunu araşdıraraq belə bir doğru qənaətə gəlir ki: "Məktəb milli maarifçiliyin canını, cövhərini, müəllimlik əsas hərəkətverici qüvvəsini təşkil edirdi. Teatr, mətbuat və ədəbiyyat isə məktəbdən, pedaqoji işdən doğan, onu tamamlayan maarifçi fəaliyyət sahələri idi". İsa Həbibbəyli tədqiqat işində bu fonda dövrün maarifçilik hərəkatının önündə gedən Eynəli bəy Sultanov (1866-1935), Məhəmməd Tağı Sidqi (1854-1903), Məhəmməd ağa Şahtaxtlı (1846-1931), Əliməmməd Xəlilov (1862-1896), Mirzə Əbülqasım Sultanov (1866-1916), Mirzə Ələkbər Süleymanov (1862-1921), Paşa ağa Sultanov (1849-1902), Mirzə Cəlil Sürbi (1874-1915), Sadıq Xəlilov (1864-1905), Tağı bəy Səfiyev (1878-1939), Məmmədqulu bəy Kəngərli (1854-1905) və başqaları haqqında yeni tədqiqatlarını elmi ictimaiyyətə təqdim etmişdir. Cəlil Məmmədquluzadə həyatında, çoxcəhətli fəaliyyətində, apardığı mübarizədə özünəməxsus yeri və rolları olan bu maarifçi ziyalıların dolğun portretini yaratmaq üçün illər ərzində müxtəlif arxivlərdən toplanılmış zəngin materiallar həm də dövrün maarifçi ədəbi-ictimai mühitinin də gedişatını və mənzərəsini canlandırmağa imkan vermişdir. Tiflis ədəbi-ictimai mühitinin inkişafı və dünyada ictimai-siyasi proseslərin dəyişməsi dalğasında həmin bu mühitdə "Molla Nəsrəddin" jurnalının (1906) nəşrə başlaması təkcə Azərbaycanda deyil, Yaxın Şərq miqyasında mütərəqqi tarixi hadisə kimi qiymətləndirilir. İsa Həbibbəylinin fikrincə, zamanın meydana çıxardığı yeni ədəbi-ictimai mühit təkcə adı çəkilən jurnalın deyil, Azərbaycan ədəbiyyatında yeni tipli ədəbi məktəbin – "Molla Nəsrəddin" məktəbinin yetişib formalaşmasını şərtləndirmişdir. İsa Həbibbəylinin "Molla Nəsrəddin" ədəbi məktəbi və mollanəsrəddinçilik təlimi haq-

qındakı araşdırmaları və tezisləri bu istiqamətdə meydana çıxmış sistemli nəzəri baxışları ifadə edir.

Məlum olduğu kimi, sovet dövrü ədəbi-ictimai fikir tariximizdə "Molla Nəsrəddin" və "Füyuzat" bir-birinə zidd olan məfkurə daşıyıcıları olaraq üz-üzə qoyulmuş, onların rəhbərləri Cəlil Məmmədquluzadə və Əlibəy Hüseynzadə əks qütbləri, fərqli və hətta antoqonist ziddiyyətli məfkurələri təmsil edən şəxsiyyətlər kimi təqdim olunmuşlar. İsa Həbibbəyli ilk dəfə olaraq bu problemə ədəbi-tarixi proseslərin reallıqları müstəvisindən yanaşaraq, hər iki cərəyanın ölkədə milli oyanış və tərəqqi, ədəbiyyatın və mətbuatın inkişafı üçün böyük əhəmiyyətini qeyd etmişdir. Tədqiqatçı dövrün bu böyük şəxsiyyətlərinin ədəbi-ictimai fəaliyyətinin reallıqlarına əsaslanaraq haqlı olaraq qeyd edir ki, millətin və ölkənin gələcək inkişafı, müstəqil və demokratik dövlət quruculuğu uğrunda mübarizədə onların tutduğu yollar fərqli, müxtəlif olsa da, heç də düşmən cəbhələr olmayıb, gəldikləri nəticələr çox yaxın və əhəmiyyətli idi.

Məlumdur ki, Əlibəy Hüseynzadə turançılıq düşüncəsini, ortaq türk dili ideyasını təbliğ edirdi. Cəlil Məmmədquluzadə isə azərbaycançılıq məfkurəsini əsas kimi qəbul etmişdir. "Molla Nəsrəddin" jurnalı da geniş mənada türk-müsəlman dünyasının mətbuat orqanı idi. Akademik İsa Həbibbəyli doğru olaraq qeyd edir ki, müstəmləkəçilik əleyhinə baxışları, demokratiya və müstəqil dövlət quruculuğu, monarxiya quruluşuna qarşı yönəlmiş azadlıq hərəkatı haqqında, dünya və rus ədəbiyyatına və mədəniyyətinə münasibət kimi məsələlərdə bu böyük şəxsiyyətlər ideya cəhətdən bir-birinə çox yaxın idilər. İsa Həbibbəyli Azərbaycan ədəbiyyatşünaslıq elmində ilk dəfə olaraq mollanəsrəddinçilik hərəkatı ilə füyuzatçılığın ortaq cəhətlərini elmi-nəzəri baxımdan sistemli şəkildə araşdırıb həll etmişdir.

Mirzə Cəlil Məmmədquluzadənin 1920-ci ildə Cənubi Azərbaycana köçməsi, "Molla Nəsrəddin" jurnalını Təbrizdə çap etdirməsi ətrafında araşdırmalar aparan İsa Həbibbəyli bu hadi-

sənin İranda realist-satirik mətbuatın inkişafındakı əhəmiyyətini də əsaslandırmışdır. Əsərdə Cəlil Məmmədquluzadənin İranda yaşamış müasirləri ilə əlaqələrinə yeni səhifələr əlavə olunmuş, "Molla Nəsrəddin" jurnalının Təbrizdə və ətraf şəhərlərdəki abunəçilərinin dəqiq siyahısı verilmişdir.

Tədqiqatçı sövet dövründə Cəlil Məmmədquluzadənin fəaliyyətini iki mərhələyə ayırır: 1) Ümid və inam dövrü (1921-1928); 2) Şübhə və sarsıntı mərhələsi (1929-1932-ci illər). Birinci mərhələ Cəlil Məmmədquluzadənin "kiçik adam" – xalq anlayışı ilə özünü fəhlə-kəndli hökuməti kimi qələmə verən sovet hökumətinin bəyanatları uyğun gəldiyi üçün böyük yazıçının yaradıcılığının qaynar dövrü kimi xarakterizə edilmişdir. İsa Həbibbəyli Cəlil Məmmədquluzadənin Sovet hakimiyyəti illərindəki sonrakı həyatı və fəaliyyətini isə haqsızlıq, çaşqınlıq, laqeydlik, tənhalıq illəri olaraq səciyyələndirilir və bütün bunların onun yaradıcılığına və ümumən ədəbiyyatın inkişafına göstərdiyi təsir yeni faktlar və sənədlər əsasında aydınlaşdırılır. Bu, əslində XX əsrin əvvəllərində digər yazıçılarımızın da yaşadığı proses idi və ona görə də həmin istiqamətdə aparılan tədqiqat geniş elmi ümumiləşdirmə imkanlarına malikdir.

Akademik İsa Həbibbəyli Cəlil Məmmədquluzadənin nəsil şəcərəsini ilk dəfə olaraq öyrənib hazırlamış və onu ədəbi-elmi ictimaiyyətə çatdırmışdır. O, uzun axtarışlardan və mətbuatda çap etdirdiyi soraq xarakterli yazılardan sonra 1992-ci il yanvarın 25-də Tehrana gedərək Mirzə Cəlilin nəslinin davamçıları ilə görüşmüş, onlarla əlaqə yaratmışdır. İsa Həbibbəyli böyük ədibin oğlu Ənvər Məmmədquluzadənin İkinci Dünya müharibəsi zamanı sovet ordusunun tərkibində həkim kimi İrana getməsini və sonra taleyin hökmü ilə həmişəlik bu ölkədə qaldığını müəyyənləşdirmiş, yazıçının burada davam edən nəslinin davamçıları haqqında zəngin məlumatlar əldə etmişdir. Cəlil Məmmədquluzadənin nəslinin davamçılarının bundan sonrakı taleyi ilk dəfə İsa Həbibbəyli tərəfindən geniş ictimaiyyətə çatdırılmışdır. Eyni

zamanda, görkəmli yazıçının nəslinin Fransada və Polşada yaşayan davamçıları haqqında da tədqiqatlar İsa Həbibbəyliyə məxsusdur. O, 1992-ci ildə Tehranda Cəlil Məmmədquluzadənin nəvələri Teymur Cavanşiri, İrena Süleymani ilə yanaşı, Polşada yaşayan Midhət Cavanşiri ilə də görüşmüşdür. İsa Həbibbəylinin 1998-ci ildə Parisdə Cəlil Məmmədquluzadənin nəvəsi Mehri xanım Səqqətçiya ilə görüşü nəsil şəcərəsini daha da aydınlaşdırmağa imkan yaratmışdır. Bütün bunlardan sonra İsa Həbibbəylinin yazıb nəşr etdirdiyi "Cəlil Məmmədquluzadənin nəsil şəcərəsi" tədqiqatı ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Bu, Azərbaycan ədəbiyyatşünaslığında yazıçıların nəsil şəcərəsinə həsr olunmuş birinci elmi-tədqiqat əsəri kimi də mühüm əhəmiyyət kəsb edir.

Dövlət müstəqilliyi dövründə Cəlil Məmmədquluzadənin əsərləri külliyyatının ən sanballı və dolğun nəşri İsa Həbibbəylinin adı ilə bağlıdır. O, çoxillik axtarışlardan sonra yazıçının 4 pərdəli "Ər" pyesini, kiçik həcmə malik "Lənət" və "Oyunbazlar" səhnəciklərini tapıb üzə çıxarmış, 16 satirik seirini, 35 məqaləsini, 170 felyetonunu ilk dəfə görkəmli yazıçının 2004-cü ildə nəşr edilmiş 4 cildlik külliyyatına daxil edərək oxuculara çatdırmışdır. Çoxcildlikdə eyni zamanda, böyük ədibin özünün və ailə üzvlərinin 50, eyni zamanda başqa tanınımış şəxsiyyətlərin elmi ictimaiyyətimizə bəlli olmayan 44 məktubu, habelə elmi-ədəbi və publisist xarakterli sənədləri və yazıları çap edilmişdir. Bütövlükdə akademik İsa Həbibbəylinin böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin əsərlərini bir neçə dəfə ayrıca kitab halında çap etdirməsi, həmin kitablara sanballı müqəddimələr, izahlar yazması həmin nəşrləri ədəbiyyatşünaslıq elmini zənginləşdirən mənbələrə çevrilmişdir.

İsa Həbibbəyli şəxsi təşəbbüsü ilə Cəlil Məmmədquluzadənin əsərlərini Misirdə ərəb dilində, Pakistanda urdu dilində, Macarıstanda, Litvada, Gürcüstanda və Özbəkistanda yazıçı

haqqında müqəddimələrlə birlikdə tərcümə etdirib kitab halında nəşr erdirmişdir.

Bununla belə, İsa Həbibbəyli Cəlil Məmmədquluzadənin bir neçə görkəmli müasirinin həyatı və irsini daha geniş və dərindən tədqiq etmiş, onların əsərlərini ilk dəfə toplayıb kitab halında nəşr etdirmişdir. Onun təqdim etdiyi "Məhəmməd ağa Şahtaxtlı. Seçilmiş əsərləri" (2006) adlı kitabda bu parlaq şəxsiyyətin çoxcəhətli fəaliyyəti ilk dəfə yeni tədqiqatlar və nadir sənədlər əsasında oxuculara çatdırılır. İsa Həbibbəyli Məhəmməd ağa Şahtaxtlı haqqındakı məlum tədqiqatlara çoxsaylı əlavələr etmiş, onun elmi tərcümeyi-halının dəqiq və aydın mənzərəsini yaratmışdır. Eyni zamanda, İsa Həbibbəyli Məhəmməd ağa Şahtaxtlının Fransada, Rusiyada, Azərbaycanda, Türkiyədə çap olunmuş çoxsaylı məqalələrini, əlifba layihələrini, məktublarını, tərcümeyi-hal sənədlərini, nadir fotoşəkillərini üzə çıxararaq ilk dəfə "Seçilmiş əsərlər" kitabında çap etməklə geniş istifadə üçün təqdim etmişdir. Beləliklə, Məhəmməd ağa Şaxtaxtlı kimi məşhur bir çoxcəhətli şəxsiyyətin keşməkeşli ömür yolu və xidmətləri haqqında ümumiləşmiş elmi təsəvvür formalaşdırılmışdır. Bu, Azərbaycan ədəbiyyatşünaslıq elmində Məhəmməd ağa Şahtaxtlını zəngin tərcümeyi-halı, yaradıcılıq fəaliyyəti və əsərləri ilə birlikdə elmi-ədəbi ictimaiyyətə təqdim edən ilk böyük addımdır. İsa Həbibbəyliyə qədər Məhəmməd ağa Şahtaxtlının cəmi 2-3 əsərinin çap olunduğunu nəzərə alsaq, təqdim edilən geniş həcmli "Seçilmiş əsərlər"in əhəmiyyəti bir daha aydın ola bilir.

İsa Həbibbəyli görkəmli maarifçi və şair Məhəmməd Tağı Sidqinin də "Əsərlər"ini ilk dəfə 2004-cü ildə "Çaşıoğlu" nəşriyyatında kitab halında çap etdirmişdir. M.T.Sidqinin "Əsərlər"inə daxil olan dərsliklər, maarifçi şeirlər, elmi əsərlər və məktublar bu sənətkarın çoxcəhətli fəaliyyətinin tam halda təsəvvür edilməsinə imkan yaradır. İsa Həbibbəylinin Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı haqqındakı araşdırmaları faktik material baxımından yeni və zəngin olduğu üçün elmi-nəzəri cəhətdən də

dərin və əsaslıdır. Alimin bu böyük maarifçi şair haqqındakı məqalələri M.T.Sidqinin ədəbi-maarifçi xidmətlərinin tam mənzərəsini təsəvvür etməyə imkan yaradır.

Eynəli bəy Sultanovun (1866-1935) tərcümeyi-halına, maarifçilik sahəsində və ədəbi fəaliyyətinə də İsa Həbibbəyli çoxillik axtarışları sayəsində ciddi əlavələr etmişdir. İlk dəfə onun araşdırmalarından məlum olmuşdur ki, İrəvan gimnaziyasında təhsil alarkən Eynəli bəy Sultanov rus, fransız, yunan, latın dillərini yaxşı öyrənmiş və tərcümələr etmişdir. Eynəli bəy Sultanovun anadan olma tarixini, Tiflisdə yox, İrəvan progimnaziyasında təhsil almasını, İrəvan Dairə məhkəməsində məsul vəzifə daşımasını da İsa Həbibbəyli müəyyən etmişdir. Cəlil Məmmədquluzadənin Eynəli bəy Sultanova xüsusi münasibət bəsləməsinin səbəbləri də onun tədqiqatında aydınlaşdırılmışdır. Eynəli bəy Sultanovun maarifçi-realist ağırlıqlı tənqidi-realist yazıçı olması haqqındakı nəzəri qənaətləri də İsa Həbibbəyli irəli sürmüşdür. Eynəli bəy Sultanovun publisist əsərlərinin kitab halında 2016-cı ildə ilk dəfə Azərbaycan və rus dillərində ayrı-ayrı kitablar halında nəşr etdirilməsi də İsa Həbibbəylinin xidmətidir.

Azərbaycan ədəbiyyatında tarixi roman məktəbinin banisi Məmməd Səid Ordubadi haqqında yazıb çap etdirdiyi "Böyük ədəbiyyat nəhəngi" kitabı bu qüdrətli sənətkarın müasir elmi-nəzəri baxışlar əsasında ümumiləşdirilmiş portretini canlandırır. Bundan başqa, İsa Həbibbəyli Məmməd Səid Ordubadinin "İki Cocuğun Avropa səyahəti" əsərini, "Qəflət", "Vətən və hürriyyət" adlı şeir kitablarında toplanan şeirləri M.S.Ordubadinin 2012-ci ildə nəşr etdirdiyi "Həyatım və mühitim" adlı kitabında oxuculara təqdim etmişdir.

Ümumiyyətlə, İsa Həbibbəyli böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin onlarla müasiri haqqında ilk dəfə söz açmış, bu maarifçi ziyalıların fəaliyyətinə dair yüzlərlə sənədi üzə çıxarmış, barəsində geniş məlumat vermiş, onların qarşılıqlı əlaqələrinin mahiyyətini elmi şəkildə aydınlaşdırmışdır. Bütövlükdə

akademik İsa Həbibbəyli Azərbaycan ədəbiyyatının "Molla Nəsrəddin" epoxasının mükəmməl elmi salnaməsini yaratmışdır.

Akademik İsa Həbibbəyli müasir ədəbiyyatı, ədəbi prosesi diqqətlə və ardıcıllıqla izləyir, yeni çap olunmuş əsərlərə elmi münasibətini bildirir, ədəbiyyatımızda həmin əsərlərin nə dərəcədə əhəmiyyətli olmasını müəyyən edir. Bu cəhətdən o, ədəbiyyatımızın yaxşı mənada təəssübkeşi və elmi surətdə böyük təbliğatçısıdır. İsa Həbibbəylinin ədəbi proses haqqındakı yazılarında ədəbiyyatın nəbzi döyünür. Deyərdim ki, İsa Həbibbəyli klassik ədəbiyyatşünaslıq ənənəsi zəminində formalaşan, ədəbiyyatın bütün dövrləri və görkəmli nümayəndələri haqqında professional səviyyədə dərin elmi söz deyə bilən, universal dünyagörüşə malik olan görkəmli tədqiqatçı alimdir. Alimin Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Hüseyn Cavid, Əlibəy Hüseynzadə, Məhəmmədhüseyn Şəhriyar, Səməd Vurğun, Mirzə İbrahimov, Mir Cəlal, Rəsul Rza, Bəxtiyar Vahabzadə və başqalarının həyatı və yaradıcılığına həsr edilmiş tədqiqatları Azərbaycan ədəbiyyatşünaslığının qiymətli elmi örnəkləridir.

XX əsrin 60-70-ci illəri Azərbaycan ədəbiyyatı yeni pleyadanın gəlişi, söz sənətinə yeni qayıdış dövrü kimi səciyyələndirilir. Xüsusən, Azərbaycan altmışıncılarının ədəbiyyata gətirdikləri yeniliklər və novatorluğun təqdimi İsa Həbibbəylinin tədqiqatlarında mühüm yer tutur. O, xalq yazıçıları Anar, Elçin və Yusif Səmədoğlunun, Xalq şairləri Fikrət Qoca və Vaqif Səmədoğlunun simasında Azərbaycan altmışıncıları ədəbi nəslinin uğurlu sənət taleyini müəyyən edib sistemli şəkildə ümumiləşdirmişdir. Onun fikrincə, həyati gerçəkliklərə sədaqət, ümumiyyətlə insana qayıdış, "kiçik adamın" və dərin mənəvi münasibətlərin ədəbiyyata gətirilməsi Azərbaycan altmışıncılarının özünəməxsus ədəbi simasını göstərir. Bu məqamda İsa Həbibbəylinin ümumi prinsiplərdən deyil, yazıçıların fərdi özünəməxsusluqlarından çıxış edərək hər sənətkarın həmin prosesdəki yerini müəyyən etməsi

məsələnin obyektiv elmi həllinin tapılması baxımından əhəmiyyətli olmuşdur. Bu yolla həm də təkcə ayrı-ayrı yazıçı və şairlər deyil, bütövlükdə dövrün ədəbi prosesi bütün reallıqları ilə təqdim olunmuşdur.

Ümumiyyətlə, faktdan, sənəddən, real proseslərdən, ədəbi mətndən çıxış edərək elmi-nəzəri ümumiləşdirmələr aparmaq, mühüm nəticələrə gəlmək İsa Həbibbəylinin tədqiqatçılıq üsuludur. Məsələnin bu cəhəti İsa Həbibbəylinin elmi fəaliyyətinin özünəməxsusluğunu müəyyən edir. Akademik İsa Həbibbəyli ədəbiyyat nəzəriyyəsi ağırlıqlı ədəbiyyat tarixçisidir.

Xalq şairi Səməd Vurğunun elmi fəaliyyəti, Azərbaycan Elmlər Akademiyasının inkişafı sahəsindəki xidmətləri də ilk dəfə İsa Həbibbəyli tərəfindən sistemli tədqiqata cəlb olunmuşdur. İsa Həbibbəylinin "Akademik Səməd Vurğun Vəkilov" adlı kitabı bu mövzuda meydana çıxmış ilk geniş həcmli əsər kimi mühüm əhəmiyyət kəsb edir. Əsərdə Azərbaycan Milli Elmlər Akademiyasının təsisçilərindən biri kimi Səməd Vurğunun tərcümeyi-halı və elmi fəaliyyətinin naməlum səhifələri üzə çıxarılmışdır. İsa Həbibbəyli akademik Səməd Vurğunun Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti kimi xidmətlərindən ilk dəfə olaraq geniş söz açmışdır. Bundan başqa, kitabda Səməd Vurğunun çoxcəhətli elmi və ədəbi-ictimai fəaliyyəti haqqında dolğun, ümumiləşdirilmiş təsəvvür formalaşdırılmışdır.

Akademik İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatında Səməd Vurğun məktəbi və Səmədoğlular" adlı məqaləsində xalq şairinin adı ilə bağlı ənənələrdən yaradıcı istifadənin geniş imkanlarından əsaslı şəkildə bəhs olunmuşdur. Məqalədə doğru olaraq qeyd olunmuşdur ki, Yusif Səmədoğlu və Vaqif Səmədoğlu tərcümeyi-hal baxımından "Səməd Vurğuna hamıdan yaxın olmalarına baxmayaraq, onlar bu böyük və ilhamlı sənətin ritmini və ahəngini deyil, dərin qatlardakı ideya-fəlsəfi axarını, ictimai ruhunu əsas kimi qəbul edərək, tamamilə orijinal yolla getməklə yeni tipli sənətkarlara çevrilmişlər". İsa Həbibbəylinin fikrincə,

Yusif və Vaqif Səmədoğlular bədii yaradıcılığında Səməd Vurğunun gəlib çatdığı, lakin o zamankı dövrün müəyyən etdiyi məhdudiyyətlərə görə inkişaf etdirə, irəli apara bilmədiyi nöqtədən, yəni həyatın dibindən başlamış, həyat hadisələrini və insanı ideologiyadan uzaq real baxışla mənalandırmışlar.

Akademik İsa Həbibbəylinin tədqiqatında haqlı olaraq Səməd Vurğun XX əsr Azərbaycan şeirinin görkəmli yaradıcılarından biri hesab olunmuşdur. İsa Həbibbəyli Səməd Vurğunun "Azərbaycan" epopeyası" yaratmaq səylərinin və ədəbiyyatda vətənpərvərlik – azərbaycançılıq ideallarını yüksək poetik səviyyədə tərənnüm etmək istedadını onun yaradıcılıq tərcümeyi-halının parlaq hadisəsi kimi səciyyələndirmişdir. İsa Həbibbəyli xalq şairi Səməd Vurğunu Azərbaycan ədəbiyyatında ədəbi məktəb yaratmış sənətkarlardan biri kimi səciyyələndirmiş və bu bənzərsiz ədəbi məktəbin işığında inkişaf edən ənənələri müəyyən etmişdir.

"Xalq şairi Məmməd Araz" (1999) albom-monoqrafiyasında İsa Həbibbəyli şair-vətəndaşın yaradıcılıq yolunun dərin və əsaslı təhlilini vermişdir. Tədqiqatçının fikrincə, Məmməd Arazın Vətənin torpağının tərənnümünə həsr edilmiş şeirlərində dərin hikmət ifadə olunmuşdur. İsa Həbibbəyli bu fikirdədir ki, Məmməd Arazın poeziyasında daş – mərdlik, möhkəmlik, dönməzlik, qaya – məğrurluq, əlçatmaz zirvə, yurda arxa və dayaq səviyyəsində tərənnüm olunur. Ədəbiyyatşünas alimin qənaətinə görə, Xalq şairi Məmməd Araz poeziyamızı məzmun və forma etibarilə daha da zənginləşdirmişdir. Monoqrafiyada Məmməd Arazın adı ilə bağlı olan sənət ənənələri müəyyən olunmuş, dövrün ədəbi prosesinin ümumi mənzərəsində təqdim edilmişdir. Məmməd Arazın "Atamın kitabı" dramatik poemasının böyük Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsərinin yeni tarixi mərhələdəki yaradıcı davamı olması fikri də nəzəri cəhətdən əsaslandırılmış yeni elmi mülahizədir.

Xalq şairi Nəriman Həsənzadənin yaradıcılığı, xüsusən də

dramaturgiyası haqqında İsa Həbibbəylinin baxışları orijinal elmi qənaətlərdir. Nəriman Həsənzadənin Azərbaycan ədəbiyyatında mənzum lirik-romantik dramaturgiyanın görkəmli yaradıcılarından biri olması fikri İsa Həbibbəyli tərəfindən əsaslandırılmış şəkildə təqdim olunmuşdur.

Akademik İsa Həbibbəyli dövlət müstəqilliyi ərəfəsində və yeni tarixi epoxada Azərbaycan ədəbiyyatında vətəndaşlıq mövqeyinin, milli düşüncənin daha da qüvvətlənməsi, istiqlalçı ədəbiyyatın yaradılması proseslərini də diqqətlə izləyib araşdırmış və aydınlaşdırmışdır. O, xalq şairi Sabir Rüstəmxanlının simasında yeni dövr milli istiqlal ədəbiyyatının böyük yaradıcılarından birini görmüş və konkret ədəbi mülahizələr əsasında fikirlərini ümumiləşdirmişdir.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında yeni yaradıcılıq təmayüllərindən bəhs edərkən İsa Həbibbəyli yazıçı-dilçi-ədəbiyyatşünas Kamal Abdullanın postmodernizm ədəbi cərəyanının yaradıcısı olduğunu əsaslı şəkildə təqdim etmişdir. Görkəmli alim eyni zamanda müstəqillik dövrü Azərbaycan ədəbiyyatında yeni yaranmış tənqidi realizm, postmodernizm, magik realizm, dekadentizm kimi cərəyanların formalaşması və inkişafına, əsas simalarına dair tədqiqatların müəllifidir.

İsa Həbibbəylinin fikrincə, müstəqillik dövrü Azərbaycan ədəbiyyatında milli ruh və vətəndaşlıq mövqeyi Xalq şairi Zəlimxan Yaqubun yaradıcılığında özünəməxsus bədii vasitələrlə təcəssüm etdirilir. O, eyni zamanda, Xeyrəddin Qocanı müstəqillik dövrü Azərbaycan ədəbiyyatında satirik nəsrin görkəmli nümayəndəsi kimi dəyərləndirmişdir. Bundan başqa, İsa Həbibbəyli "Bütün yönləri ilə yaradıcı" adlı kitabında (2014) Rəşad Məcidin çoxcəhətli yaradıcılıq yolunu hərtərəfli şəkildə təhlil edərək aşağıdakı elmi qənaətlərə gəlmişdir: "Rəşad Məcid bir ədəbi şəxsiyyət olaraq bütün yönləri ilə yaradıcı olan, axtarışlarının ardıcıllığı və bədii təfəkkürünün orijinallığı və genişliyi, baxışlarının və inamının bütövlüyü ilə fərqli görünən kamil və

professional bir Azərbaycan ziyalısıdır. Müstəqillik dövrü Azərbaycan ziyalılığının fəal vətəndaşlıq mövqeyi, aydın milli düşüncəsi, açıq və yetkin yaradıcı təfəkkürü Rəşad Məcidin simasında ümumiləşə bilir".

Müasir Azərbaycan ədəbiyyatında özünəməxsus mövqeləri olan Rüstəm Behrudi, Yunus Oğuz, Səyyad Aran, Əjdər Ol, Asim Yadigar, Vaqif Məmmədov, Xanəli Kərimli və başqalarının yaradıcılıq nümunələri də İsa Həbibbəylinin tədqiqatları sırasında mühüm yer tutur.

İsa Həbibbəyli Azərbaycan ədəbiyyatşünaslığının klassikləri haqqında da qiymətli əsərlər yazmışdır. O, Firidun bəy Köçərlidən Azərbaycan ədəbiyyatşünaslıq elminin babası səviyyəsində söz açmışdır. İsa Həbibbəyli akademik Məmməd Arif Dadaşzadənin həyatını və çoxcəhətli elmi yaradıcılığını müdriklik və müasirlik nümunəsi kimi dəyərləndirmişdir. İsa Həbibbəyli akademik Məmməd Cəfər Cəfərovu Azərbaycan ədəbiyyatşünaslığında böyük elmi məktəb yaratmış görkəmli elm xadimi hesab etmişdir. Onun fikrincə, Məmməd Cəfər Cəfərovun adı ilə bağlı olan elmi məktəb "Ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid məktəbidir". İsa Həbibbəyli haqlı olaraq Məmməd Cəfər Cəfərovu Azərbaycan romantizmşünaslıq nəzəriyyəsinin banisi kimi dəyərləndirir. Tədqiqatçının görkəmli elm xadimi Abbas Zamanovu XX əsrin böyük vətəndaş alimi kimi səciyyələndirməsi də elmi cəhətdən əsaslandırılmış qənaətlərdir. Onun Kamal Talıbzadənin ədəbi tənqid tarixi, Əziz Mirəhmədovun və Kamran Məmmədovun ədəbiyyat tarixçiliyi sahəsindəki fəaliyyətinə verdiyi yüksək elmi qiymət də obyektivdir. Professor Əziz Şərifin "böyük ədəbiyyatşünaslıq missiyası"nı həyata keçirmiş elm xadimi olaraq təqdim edilməsi də faktların və hadisələrin işığında nəzərə çarpdırılmışdır. İsa Həbibbəylinin akademik Bəkir Nəbiyevi "ədəbi tənqid ağırlıqlı ədəbiyyatşünas" kimi xarakterizə etməsinə dair mülahizələrini böyük alimin elmi əsərləri əyani surətdə təsdiq edir.

Ayrı-ayrı ədəbiyyatşünas alimlərin yazı tərzini, onların fərdi

üslublarını müəyyən etmək yolunda da akademik İsa Həbibbəyli ilk və əhəmiyyətli addım atmışdır. Onun elmi-nəzəri qənaətlərinə görə filoloji elmdə Firidun bəy Köçərli ədəbi-tarixi, Mehdi Hüseyn ədəbi-publisist, Məmməd Arif Dadaşzadə elmi-sosioloji, Asif Əfəndiyev ədəbi-fəlsəfi, Məmməd Cəfər Cəfərov elmi-nəzəri üslubu yaradan görkəmli ədəbiyyatşünaslardır. Alimin fikrincə, Yaşar Qarayev isə analitik obrazlı təfəkkürü ilə fərqlənir: "O, ən sərt, sırf, xalis elmi detallara şairanə baxmağı bacarır". İsa Həbibbəylinin, Yaşar Qarayevin əsərlərindən göstərdiyi örnəklər həmin gerçəkliyi əyani şəkildə təsdiq edir: "Ədəbi tənqid ədəbi kompasa bənzəyir. Burada da əqrəb həmişə həqiqət qütbünü nişan verir". Yaxud: "Bizdə bütün izm"ləri bir vahid yuvadan bir ana qartal uçurub: "…klassik poeziya" və ya: "Yazıçı kosmonavta yox, əkinçiyə, taxılçıya, kotançıya bənzəyəndə sehirli və gərəkli olur", "Ən xoşbəxt ədiblər... qara mürəkkəblə də ağ kağıza ağ işıq dağıdanlardır"... İsa Həbibbəyli Azərbaycan ədəbiyyatşünaslıq elmində Yaşar Qarayevin milli realizmşünaslıq nəzəriyyəsinin yaradıcısı olduğunu da elmi cəhətdən əsaslandırmışdır. Eyni zamanda o, Yaşar Qarayevin teatr sənətinə həsr etdiyi, yüksək professionallıqla yazılmış əsərlərində ədəbiyyatşünaslıqla sənətşünaslığın peşəkarlıq səviyyəsində vəhdətdə ifadə olunmasını yüksək qiymətləndirmişdir. İsa Həbibbəyli Yaşar Qarayevdən eyni zamanda ustad müəllimləri Əli Sultanlı və Məmməd Cəfər Cəfərovla yeni nəsil ədəbiyyatşünaslar arasında körpü yarada bilən, geniş təfəkkürə malik ədəbiyyatşünas kimi bəhs edir. İsa Həbibbəyli eyni zamanda akademik Məmməd Cəfər Cəfərovun "İnsanlar və talelər", "Get dolangilən, xainsən hələ" pyeslərini, "Xatirələr" memuarını və bir poemasını tapıb üzə çıxarmaq və nəşr etdirməklə bu görkəmli elm xadiminin yaradıcılıq dünyasının genişliyini diqqətə çatdırmışdır. Bundan başqa, İsa Həbibbəylinin araşdırmalarında akademik Nizami Cəfərovdan universal düşüncəsi və obrazlı təfəkkürü ilə səciyyələnən alim olaraq söz açılır. Professor Qəzənfər Paşayevin "Azər-

baycan kərkükşünaslığının yaradıcısı" hesab edilməsi, Vaqif Yusiflinin əsl tənqidçi simasının göstərilməsi də elmi cəhətdən obyektiv reallıqları ifadə edir.

Akademik İsa Həbibbəyli elmi fəaliyyətə Ədəbiyyat nəzəriyyəsi ixtisası üzrə aspirantura təhsili almaqla başlamışdır. O, "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" adlı namizədlik dissertasiyasında şeirdə poetik forma və bədii üslub müxtəlifliyi məsələlərini elmi-nəzəri cəhətdən şərh etmişdir. Ayrı-ayrı vaxtlarda dövri mətbuatda çap olunan "Böyük ədəbiyyatşünaslıq uğrunda", "Ədəbiyyatın tərifi", "Ədəbiyyatşünaslıq elminin şöbələrinə yenidən baxış", "Satira ədəbi növ kimi", "…Sonet janrı", "Azərbaycan şeirində himn və marş", "Kiçik hekayə janrı – novella", "Dialoq haqqında monoloq", "Ədəbi əlaqələrdən – müqayisəli ədəbiyyatşünaslığa" və sair elmi-nəzəri məqalələri ədəbiyyatşünas alimin ədəbiyyat nəzəriyyəsi istiqamətində də ciddi elmi əhəmiyyəti olan tədqiqatların müəllifi olduğunu meydana qoyur. "Ədəbiyyat nəzəriyyəsi" adlı dərs vəsaiti (1985) hazırda da ali məktəblərimizdə bu fənnin tədrisində istifadə olunan qiymətli bir bələdçi kimi elmi dəyərini qoruyub saxlayır. Ədəbiyyat nəzəriyyəsi kitabındakı təriflərin əksəriyyəti İsa Həbibbəyli tərəfindən düstur kimi hazırlanıb formalaşdırılmışdır. İsa Həbibbəylinin "Romantik lirikanın imkanları" adlı monoqrafiyasında (1984) XX əsrin əvvəlləri Azərbaycan romantik şeirinin poetikası, sənətkarlıq xüsusiyyətləri tədqiq edilib ümumiləşdirilmişdir.

İsa Həbibbəylinin ali məktəbdə bir müəllim kimi fəaliyyət göstərməsi, "XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı" və "Ədəbiyyat nəzəriyyəsi" fənlərindən uzun illər mühazirələr oxuması onun bir sıra dərslik, dərs vəsaitləri və metodik bələdçiləri yazıb nəşr edilməsinə imkan yaratmışdır.

Ali məktəblərin ehtiyacı nəzərə alınmaqla yazılmış "XX əsrin əvvəlləri Azərbaycan yazıçıları" dərs vəsaitində yazıçı və şairlərin tərcümeyi-halı və yaradıcılıq yolu dəqiqləşdirilərək elmi sistem əsasında təqdim olunur. Eyni zamanda, bu əsərin Azərbay-

can ədəbiyyatını tanıtmaq baxımından da mühüm əhəmiyyəti vardır. “XX əsrin əvvəlləri Azərbaycan yazıçıları” kitabının Rusiyada, Türkiyədə və Ukraynada nəşri də bunu əyani şəkildə göstərir. Bu dərs vəsaitində ilk dəfə olaraq XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının ədəbi cərəyanlar üzrə təsnifatı aparılmış və əsas təmsilçilərinin həyatı və yaradıcılıq yolu oxuculara çatdırılmışdır. Bundan başqa, yaradıcılıqları az öyrənilmiş, çox vaxt tədris proqramlarında yer almayan Hacı Kərim Sanılı, Eynəli bəy Sultanov, Ömər Faiq Nemanzadə, Əliabbas Müznib, Əhməd Cavad, Əhməd bəy Ağayev, Abdulla Sur, Məmməd Əmin Rəsulzadə və başqalarının həyatı, ədəbi fəaliyyəti də ilk dəfə olaraq bu dərs vəsaitində geniş işıqlandırılmışdır.

Akademik İsa Həbibbəylinin də əsas müəlliflərindən biri olduğu orta ümumtəhsil məktəblərinin XI sinfi üçün “Ədəbiyyat” dərsliyi 2006-cı ildən müstəqillik dövrünün yeni nəsillərinə zəruri ədəbiyyat bilikləri və dünyagörüşü verir.

Bundan başqa, İsa Həbibbəyli ilk dəfə olaraq ədəbiyyatın növlərə və janrlara bölünməsinin yenidən təsnifatını aparmışdır. Alimin fikrincə, ədəbi növlərin sırasına lirik, epik və dramatik ədəbi növlərlə yanaşı daha bir ədəbi növ – satira ədəbi növü də əlavə olunmalıdır. Akademik İsa Həbibbəyli satiranın müstəqil ədəbi növ olduğunu elmi-nəzəri cəhətdən əsaslandırmış, satira ədəbi növünə aid olan janrları müəyyənləşdirmişdir.

Akademik İsa Həbibbəyli ilk dəfə olaraq Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirmə konsepsiyasını hazırlamış və inkişaf mərhələlərini müəyyən etmişdir. O, türk dünyası ədəbiyyatı tarixinin dövrləşdirilməsi məsələləri ilə də məşğul olmuş, öz konsepsiyasını irəli sürmüşdür. Onun “Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri” monoqrafiyası bu istiqamətdə yazılmış ciddi nəzəri tədqiqat əsəridir.

Universallıq akademik İsa Həbibbəylinin elmi fəaliyyətinin aparıcı xüsusiyyətidir. Ədəbiyyatşünaslıq elminin ədəbiyyat tarixi və ədəbiyyat nəzəriyyəsi istiqamətlərində ardıcıl elmi fəaliyyətlə

məşğul olmaq İsa Həbibbəylinin tədqiqatçılıq elminin sütunlarıdır. Bundan başqa, o, tarix, folklorşünaslıq, ədəbi əlaqələr, mühacirət ədəbiyyatı, sənətşünaslıq, teatr tarixi kimi sahələrdə də axtarışlar aparmış, kitablar və məqalələr nəşr etdirmişdir. İsa Həbibbəylinin Dünya tufanı, Nuh peyğəmbər və Naxçıvan haqqındakı tədqiqatları sivilizasiyaların tarixinə həsr edilmiş qiymətli elmi mənbələrdir. "Duzdağ mozaikası" kitabı (2017) alimin ilkin insan məskunlaşmasına və erkən şəhər mədəniyyətinə dair maraqlı elmi-tədqiqat əsəridir.

İsa Həbibbəylinin 2016-cı ildə nəşr olunmuş "Yollar şeirdən başlanmışdı" kitabında onun müxtəlif illərdə yazdığı şeirləri, hekayə və pyesi, şeirlərinə bəstələnmiş mahnılar və tərcümə etdiyi əsərlər toplanılmışdır.

Akademik İsa Həbibbəyli təkcə elmi, elmi-pedaqoji uğurlarına görə deyil, yüksək təşkilatçılıq qabiliyyətinə, insanlarla işləyə bilmək, ünsiyyət yaratmaq bacarığına görə seçilən alimlərimizdəndir. Hələ tələbəlik illərindən Naxçıvan Dövlət Universitetinin ictimai işlərində fəal çalışan İsa Həbibbəylinin Tələbə elmi cəmiyyətinə uzun illər uğurla rəhbərlik etməsi onun 1991-ci ildə elmi işlər üzrə prorektor vəzifəsinə təyin olunmasına gətirib çıxarmışdır. Ali məktəbdə yaratdığı canlanma və inkişaf alimin sonrakı taleyində mühüm rol oynamışdır. Nəticədə İsa Həbibbəyli 1996-cı il oktyabr ayının 16-da Naxçıvan Dövlət Universitetinə rektor vəzifəsinə təyin olunmuşdur. Vaxtilə bir müddət Naxçıvan Dövlət Pedaqoji İnstitutunun rektoru vəzifəsini əvəz etmiş professor Yavuz Axundlu qeyd edir ki, "1990-cı illərin əvvəllərindəki dağıdıcı təsirlər Naxçıvan Dövlət Universitetindən yan keçməmişdi. Bu təhsil ocağında çətin və mürəkkəb şərait yaranmışdı. Müəllimlər siyasi qruplaşmalara bölünmüşdü, təsərrüfatsızlıq və baxımsızlıq baş alıb gedirdi. Ali təhsil ocağının inkişaf etdirilməsi üçün İsa Həbibbəyli ən yaxşı namizəd oldu… O, universitetdə yaxşı ənənələri qoruyub saxladı, sələflərinin xidmətlərini xatırlatdı, özünü onların işlərini davam etdirən varis

olduğunu bəyan etdi, kollektivi ətrafına topladı, xeyrxahlığı, səmimiyyəti və təşəbbüskarlığı, yorulmaz fəaliyyəti, əzmi ilə universiteti qabağa apardı".

– Şərur rayonu Danzik kənd səkkizillik məktəbində ana dili və ədəbiyyat müəllimi kimi fəaliyyətə başlamışdır.

***1972*** – Hərbi xidmətdə olmuşdur.

***1973*** – Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun qiyabi aspiranturasına daxil olmuş, "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikasında sənətkarlıq xüsusiyyətləri" mövzusunda elmi tədqiqat üzərində işləməyə başlamışdır.

***1975*** – Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunun "Ədəbiyyat" kafedrasında müəllim işləməyə başlamışdır.

– Azərbaycan Elmlər Akademiyası aspirantlarının elmi konfransında "XX əsr Azərbaycan romantik lirikasında Füzuli günləri" mövzusunda məruzə ilə çıxış etmişdir.

***1979*** – Azərbaycan Dövlət Universitetində Məhəmməd Hadinin 100 illiyinə həsr edilmiş konfransda "Hadi lirikasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda məruzəsi dinlənilmişdir.

***1980*** – Nizami adına Ədəbiyyat İnstitutunun İxtisaslaşmış Elmi Şurasında "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir (14 mart).

***1982*** – Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasında "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" adlı doktorluq dissertasiyasının mövzusu təsdiq edilmişdir.

***1984*** – Naxçıvan Dövlət Pedaqoji İnstitutunun Ədəbiyyat kafedrasında dosent təyin olunmuşdur.

– "Yazıçı" nəşriyyatında "Romantik lirikanın imkanları" adlı ilk monoqrafiyası çapdan çıxmışdır.

***1985*** – "Ədəbiyyat nəzəriyyəsi" və "Ədəbi yüksəliş" adlı kitabları çapdan çıxmışdır.

***1988*** – Azərbaycan Yazıçılar Birliyinin üzvlüyünə qəbul edilmişdir.

– Odessada və Lev Tolstoyun Yasnaya Polyanadakı ev-muzeyində elmi axtarışlarla məşğul olmuşdur.

***1989*** – Cəlil Məmmədquluzadənin övladlarının taleyini öyrənmək məqsədilə "Odlar yurdu" qəzetində dərc etdirdiyi "Ənvəri kim tanıyır?" adlı məqalə ilə axtarışlara başlamışdır. Ədibin nəslinin davamçılarının Fransada, İranda və Polşada yaşadıqlarını müəyyən etmişdir.

***1990*** – Cəlil Məmmədquluzadənin yeni tapılmış "Ər", "Lənət" və "Oyunbazlar" adlı naməlum pyeslərini Bakı Dövlət Universitetinin nəşriyyatında kitab halında nəşr etdirmişdir.

– Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru vəzifəsinə təyin edilmişdir.

***1991*** – İstanbulda keçirilən "Yayın konqresi və tatil haqları qurultayı"nda çıxış etmişdir.

***1992*** – Türkiyənin Atatürk Universiteti nəşriyyatında "XX yüzyılın başlarında yaşayan Azerbaycan yazarlarının bioqrafileri" və "Nahçıvan Universitesi" adlı kitabları çapdan çıxmışdır.

– Cəlil Məmmədquluzadənin nəvələri Teymur, Midhət və İrena Cavanşirilərlə Tehranda görüşmüşdür (26 yanvar).

– Cəlil Məmmədquluzadənin 125 illik yubileyini keçirən Dövlət Komissiyasının tərkibinə daxil edilmişdir (17 dekabr).

***1994*** – Azərbaycan nümayəndə heyətinin tərkibində İraqda keçirilən "Füzuli günləri"ndə iştirak etmiş, Bağdadda, Kərkükdə, Nəcəfdə, Mədaində olmuş, Kərbəlada Füzulinin məzarını ziyarət etmişdir.

***1995*** – Şimali Kipr Türk Cümhuriyyətində keçirilən III Uluslararası Atatürk Simpoziumunda "Azərbaycan yazarı Əli bəy Hüseynzadənin yaradıcılığında Atatürk", İranın Marağa şəhərindəki Beynəlxalq Əvhədi Konqresində "Əvhədi əsərlərinin tərcüməsi və nəşri məsələləri" mövzusunda məruzə ilə çıxış etmişdir.

– Naxçıvan Atatürk Araşdırma Mərkəzinin rəhbəri seçilmişdir.

***1996*** – Nizami adına Ədəbiyyat İnstitutunun İxtisaslaşmış Şurasında "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (15mart).

***1996-2013*** – Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsində çalışmışdır.

***1997*** – Başqırdıstanın paytaxtı Ufada keçirilən Türkoloqların Beynəlxalq Konqresində "Əli bəy Hüseynzadənin türkçülük ideyaları" mövzusunda, Türkiyədə və Qırğızıstanda keçirilən qurultay və konfranslarda məruzələrlə çıxış etmişdir.

– Professor elmi adı almışdır.

– Azərbaycan Dövlət Nəşriyyatında "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" adlı monoqrafiyası nəşr olunmuşdur.

– Naxçıvan MR Ali Məclisinin deputatı seçilmişdir.

***1998*** – Türkiyənin Van şəhərində keçirilən Uluslararası Dədə-Qorqud simpoziumunda "Kitabi-Dədə Qorqud" dastanlarının tədqiqi yeni mərhələdə mövzusunda məruzəsi dinlənilmişdir.

– Azərbaycan Respublikasının Prezident seçkilərində Heydər Əliyevin vəkili olmuşdur.

– Şimali Kipr Respublikasında keçirilən "Atatürk, türk dünyası və Kıbrıs" simpoziumunda "Atatürk Naxçıvan" mövzusunda məruzə ilə çıxış etmişdir.

– Azərbaycan Jurnalistlər Birliyinə üzv qəbul edilmişdir.

***1999*** – Moskvanın "Nauka" nəşriyyatında "Djalil Mamedkuluzade (Molla Nasreddin) adlı kitabı çapdan çıxmışdır.

– Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə görkəmli dövlət xadimi Heydər Əliyevə fəxri doktor diplomunu təqdim etmişdir.

– Atatürk Araşdırma Mərkəzi üzrə Atatürk Kültür, Dil və Tarix Qurumunun müxbir üzvü seçilmişdir.

– Türkiyədə çıxan "Qardaş ədəbiyyatlar" jurnalının redaksiya heyətinin üzvü seçilmişdir.

***2000*** – Tempus proqramı çərçivəsində Fransa, Almaniya, İngiltərə və Belçikada olmuşdur.

– İkinci dəfə Naxçıvan MR Ali Məclisinin deputatı və "İnsan haqları, parlamentlərarası əlaqələr və beynəlxalq münasibətlər" komissiyasının sədri seçilmişdir.

– "Naxçıvan Dövlət Universiteti" kitabı Azərbaycan, ingilis, fransız, rus və alman dillərində çapdan çıxmışdır.

– Naxçıvan Dövlət Universitetinin nümayəndə heyətinin başçısı kimi Təbriz Dövlət Universitetində olmuşdur.

– Tehranda "Şəhriyar dünyası" kitabı çapdan çıxmışdır.

***2001*** – Nəsirəddin Tusinin 800 illik yubileyi ilə əlaqədar İranın Marağa şəhərində keçirilən beynəlxalq simpoziumda "Nəsirəddin Tusi və müasirlik" mövzusunda məruzə ilə çıxış etmişdir.

– AMEA-nin müxbir üzvü seçilmişdir (iyun).

– Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

– Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvü seçilmişdir.

– NDU-nun "Elmi əsərləri"nin və "Fikir" informasiya jurnalının baş redaktoru olmuşdur.

***2002*** – Bolqarıstanın Şumen Dövlət Universitetində keçirilən beynəlxalq elmi konfransda "Əli bəy Hüseynzadənin Şərq-Qərb ideyaları" mövzusunda məruzə ilə çıxış etmişdir (oktyabr).

***2003*** – AMEA-nın həqiqi üzvü seçilmişdir (22 aprel).

– ABŞ-da olmuş, Perdu Kalument Universiteti ilə Naxçıvan Dövlət Universitetinin əməkdaşlığına dair müqavilə imzalanmışdır (5 noyabr).

– Amerikanın Oyk-park şəhərində Ernest Heminqueyin ev-muzeyini və oxuduğu məktəbi ziyarət etmiş, Heminquey Elmi Mərkəzində "Heminquey və Azərbaycan" mövzusunda məruzəsi dinlənilmişdir.

– Bolqarıstanda çıxan "Kaynak" dərgisində "Molla Nəsrəddin" və Türkiyə" adlı məqaləsi (İman Cəfərovla birlikdə) çap edilmişdir.

***2004*** – Fransada nəşr olunan "Yeni ədəbiyyat" toplusunda Cəlil Məmmədquluzadə haqqında məqaləsi fransız dilində çap olunmuşdur.

– Avropa Universitetlər Assosiasiyasının İspaniyanın Barselona şəhərində keçirilən beynəlxalq konqresində məruzə etmişdir (18-21 oktyabr).

– AMEA-nın "Xəbərlər" jurnalının (Dil, Ədəbiyyat, İncəsənət seriyası) redaksiya heyətinin üzvü seçilmişdir.

***2005*** – Azərbaycan Respublikası Təhsil Nazirliyi nümayəndə heyətinin tərkibində Misir Ərəb Respublikasında səfərdə olmuşdur (14-22).

– Naxçıvan Dövlət Universitetinin Qahirə Hilvan və İskəndəriyyə universitetləri ilə qarşılıqlı əlaqələrinə dair müqavilə imzalanmışdır.

– Moskvada “Terrorizm və dinlərarası dialoq” mövzusunda keçirilən beynəlxalq simpoziumda iştirak etmişdir.

– Dünya şöhrətli yazıçı Çingiz Aytmatovla görüşmüşdür (7-11 iyun).

– “Elektron Naxçıvan: Problemlər və həllər” mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransda məruzə etmişdir.

– Türkiyə Cümhuriyyətinin Doğu Bayazit şəhərində keçirilən “Birinci Uluslararası Ağrı dağı və Nuhun tufanı” simpoziumunda məruzə ilə çıxış etmişdir.

– Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmişdir (6 noyabr).

– Tunis şəhərində keçirilən İnformasiya Texnologiyaları üzrə Dünya Sammitində iştirak etmiş (13-17 noyabr), sammit çərçivəsində təşkil olunan Azərbaycan günündə çıxış etmişdir.

***2006*** – Türkiyə Cümhuriyyətinin İqdır şəhərində keçirilmiş “Xocalı soyqırımı paneli”ndə “Xocalı faciəsinə tarixi-siyasi qiymət” adlı məruzə ilə çıxış etmişdir (26 fevral).

– Türkiyə Cümhuriyyətinin Kocaeli Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında qarşılıqlı əməkdaşlığa dair müqavilə bağlanılmışdır (5 aprel).

– Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilmişdir (26 iyun).

– Londonda açılmış Azərbaycan məktəbinin birinci son zəng günündə iştirak və çıxış etmişdir 7 iyul).

– BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının Moskvadakı iqamətgahında olmuş, Akademiyanın Prezidenti, akademik A.Q.Xaritonla görüşmüş, üzvlük sənədlərini almışdır (4 avqust).

– Naxçıvan MR Ali Məcisinin nümayəndə heyətinin tərkibində İran İslam Respublikasının Qərbi Azərbaycan Ostandarlığında səfərdə olmuşdur (avqust).

– Azərbaycan Respublikası Milli Məclisi nümayəndə heyətinin tərkibində Pakistan İslam Respublikasının paytaxtı İslamabadda olmuşdur.

– İslamabad Müasir Dillər Milli Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında qarşılıqlı əməkdaşlığa dair müqavilə imzalanmışdır (1 dekabr).

***2007*** – "Azərbaycan-Misir əlaqələri" beynəlxalq simpoziumunda iştirak və məruzə etmiş, Naxçıvan Dövlət Universiteti və Qahirə Universiteti arasında qarşılıqlı əməkdaşlıq haqqında saziş imzalanmışdır.

***2008*** – Moskvada nəşr edilən "Beynəlxalq elmi jurnal"ın redaksiya heyətinin üzvü seçilmişdir.

– Avropa Rektorlar Klubuna üzv qəbul edilmişdir.

– Naxçıvan Dövlət Universitetinin İran İslam Respublikasının Təbriz şəhərində olan nümayəndə heyətinə rəhbərlik etmiş, Təbriz Universitetinin rektoru Məhəmməd Ələvi ilə müqavilə imzalamışdır.

***2009*** – Türkiyə Cümhuriyyətinin Elazığ şəhərindəki Fırat Universitetində Novruz şənliklərində iştirak etmişdir.

– Ərdahan Universitetinin rektoru, professor-doktor Ramazan Korkmazla müqavilə imzalanmışdır.

– YUNESKO-da keçirilən Ali təhsil üzrə beynəlxalq konqresdə iştirak etmişdir (Paris - 4-8 iyul).

– "Atatürkdən Heydər Əliyevə - Nizamidən Yunus İmrəyə: tarixi-ədəbi ənənələr və müasir dövr" beynəlxalq simpoziumunda məruzə etmişdir.

– AMEA-nın Rəyasət Heyəti anadan olmasının 60 illik yubileyinin keçirilməsi haqqında qərar qəbul etmişdir (2 oktyabr).

– Anadan olmasının 60 illiyi ilə əlaqədar NDU-da yubiley yığıncağı keçirilmiş, AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev onun elmi-pedaqoji fəaliyyəti haqqında məruzə etmişdir (16 oktyabr).

– AMEA-nın Rəyasət Heyətində 60 illiyi qeyd olunmuşdur. Akademik Bəkir Nəbiyev məruzə ilə çıxış etmişdir (11 noyabr).

– Gürcüstan Respublikasının Axalsix, Türkiyə Respublikasının Ərdahan və Qars şəhərlərində səfərdə olan Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin nümayəndə heyətinə rəhbərlik etmiş, Axalsix Dövlət Universitetinin rektoru, professor Tina Gelaşvili ilə universitetlərarası əlaqəyə dair müqavilə imzalanmışdır (noyabr).

– NDU-nun hazırladığı "Arşın mal alan" operettası bu şəhərlərdə nümayiş etdirilmişdir.

– Avstriyanın Ştiriya vilayətində səfərdə olmuş, Naxçıvan Dövlət Universiteti ilə Qrats Karl Frantsenes Universiteti arasında əməkdaşlıq memorandumu imzalanmışdır.

– Türk Dünyası Pediatrlarının VIII konqresində çıxış etmişdir (Naxçıvan).

– Rusiya Federasiyasının Novosibirsk şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 85 illiyi ilə əlaqədar "Heydər Əliyev: lider və zaman" mövzusunda keçirilmiş beynəlxalq elmi konfransda məruzə etmişdir.

– Uluslararası Türk kültürü konqresində məruzə ilə çıxış etmişdir.

– Türkiyədə keçirilən Uluslararası Ağrıdağı simpoziumunda çıxış etmişdir.

***2010*** – Türkiyənin Ərdəhan şəhərində Atatürk Kültür Mərkəzinin, Ərdəhan vilayətinin və Ərdəhan Universitetinin Naxçıvan Universiteti ilə birgə keçirdikləri "Azadlığın səsi Bətiyar Vahabzadə" beynəlxalq simpoziumunda iştirak etmişdir. Bölmə iclaslarından birinə sədrlik etmiş, "Xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığında milli istiqlal düşüncəsi" mövzusunda məruzə etmişdir. Ərdəhan küçələrindən birinə şairin adının verilməsi mərasimində çıxış etmişdir. (13-14 fevral)

– Naxçıvan Dövlət Universitetində "Elektron Naxçıvan – 5: nəticələr və vəzifələr" mövzusunda keçirilən beynəlxalq simpoziuma sədrlik etmişdir (25-26 iyun).

– Macarıstanda keçirilmiş "Macarıstan-Azərbaycan: mədəniyyətlərin dialoqu" V Beynəlxalq elmi konfransda "XX əsrin əvvəlləri Azərbaycan ədəbi-ictimai fikrində Avropa" mövzusunda məruzə ilə çıxış etmiş, bölmə iclasının sədri olmuşdur (25-26 noyabr).

– Beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisində keçirilmiş seçkilərdə iştirak etmiş, yenidən Milli Məclisin deputatı seçilmişdir (6 noyabr).

– Amerika Bioqrafiya İnstitutunun akademiki seçilmişdir (14 dekabr).

***2011*** – Türkiyə Cümhuriyyətinin Qars şəhərində Qars Qafqaz Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır (22 mart).

– Ankara Universitetinin rektoru, professor Camal Taluq ilə birlikdə Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalamışdır (24 mart).

– Şimali Kipr Respublikasının Doğu Akdeniz Universitetinin rektoru, professor-doktor Abdullah Öztopraq və Türkiyə Cümhuriyyətinin Ərdahan Universitetinin rektoru, professor-doktor Ramazan Korkmaz Naxçıvan Dövlət Universitetində olmuşlar. Qarşılıqlı əməkdaşlıq müqavilələri imzalanmışdır (28-29 aprel).

– Qars Qafqaz Universiteti və Naxçıvan Dövlət Universitetinin birgə keçirdikləri "Kars Antlaşması ve Bölgesel Etkileri" adlı III Uluslararası Kafkasya Tarih simpoziumunun əsas təşkilatçılarından olmuş və məruzə ilə çıxış etmişdir (14 oktyabr).

***2012*** – Polşanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixal Labenda, Polşa Baş Ticarət Məktəbinin rektoru Adam Budnikovski və səfirlik əməkdaşları ilə Naxçıvan Dövlət Universitetində görüşdə qarşılıqlı əməkdaşlıqlıq haqqında müavilə imzalanmışdır (24-25 fevral).

– Yaponiyanın Elm, Təhsil, Mədəniyyət və İdman Nazirliyinin təşkil etdiyi “Ali məktəblərin səmərəli idarə olunmasında Yapon modeli” mövzusuna həsr olunmuş beynəlxalq seminarda iştirak və çıxış etmişdir (Tokio).

– Xirosimo şəhərində olmuş, muzeyini ziyarət etmişdir.

– Avstriyaya səfər etmiş və Grats Universitetində NDU-nun təqdimatı olmuşdur (6-9 may).

– Ağrı Çeçen İbrahim Universitetində “İşbirliyində öncelikli konular və geleceye yonelik planlar” toplantısında çıxış etmişdir (16 may).

– Naxçıvan Dövlət Universiteti ilə Şota Rustaveli adına Batumi Dövlət Universiteti arasında anlaşma memorandumu imzalanmışdır.

– Türkiyə Cümhuriyyətinin Ərzincan Universitetinin rektoru, professor İlyas Çapoğlunun başçılıq etdiyi nümayəndə heyətini NDU-da qəbul etmiş, qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalamışdır (20 iyun).

– NDU-da “Elektron Naxçıvan-7: lokal şəbəkədə İKT-dən istifadə imkanları” mövzusunda beynəlxalq simpoziuma sədrlik etmişdir (6-7 iyul).

– “Naxçıvan: İlkin şəhər və Duzdağ” mövzusunda keçirilmiş beynəlxalq simpoziumda “Nuhdaban oturaq məkanı və Duzdağ şəhərətrafı mədəniyyəti” mövzusunda məruzə ilə çıxış etmişdir (30 iyul).

– Avstriyanın “Gain&Sustan” (“Əldə etmək və saxlamaq”) təşkilatının Naxçıvan Dövlət Universiteti ilə birgə hazırladığı “Gənclər fəaliyyətdə” layihəsi Avropa İttifaqı tərəfindən maliyyələşdirmə üçün qəbul olunmuşdur(26-30 avqust).

– NDU-da İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğunun Mədəniyyət idarəsi ilə birgə keçirdiyi "Şəhriyar – müasir dövrün böyük şairi" mövzusunda beynəlxalq elmi konfransda məruzə ilə çıxış etmişdir (6 oktyabr).

– NDU-da "Türk Akademiyasının yaradılması və türkdilli dövlətlərin Naxçıvan sammitinin qərarlarının həyata keçirilməsində böyük addım" mövzusunda beynəlxalq təqdimat mərasimində çıxış etmişdir.

– Türkiyənin Ərzurum Atatürk Universitetinin rektoru professor Hikmət Koçakın başçılıq etdiyi nümayəndə heyəti NDU-da olmuş, hər iki universitet arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır (17 dekabr).

***2013*** – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti seçilmişdir (24 aprel).

– Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilmişdir (25 aprel).

– AMEA Nizami adına Ədəbiyyat İnstitutuna direktor təyin olunmuşdur (19 iyun).

– Penza Dövlət Universitetində keçirilən VIII Beynəlxalq "Elektron Naxçıvan" konfransının (9 iyul, 2013) fəxri qonağı olmuş, məruzə ilə çıxış etmişdir.

– "Naxçıvan: ilkin şəhər və Duzdağ" beynəlxalq simpoziumunda məruzəsi dinlənilmişdir (27-28 iyul).

– Almaniyanın Humboldt Universitetində fəaliyyət göstərən "Azərbaycan tarixi" kafedrası ilə Nizami adına Ədəbiyyat İnstitutu arasında müqavilə imzalanmışdır (2 noyabr).

– Qazaxıstanın Astana şəhərində Türk Akademiyasının keçirdiyi "Çingiz Aytmatov və müasir türk dünyası" adlı beynəlxalq simpoziumda məruzə etmişdir (6 noyabr).

– Nizami adına Ədəbiyyat İnstitutu ilə Türk Akademiyası arasında qarşılıqlı əməkdaşlığa dair müqavilə imzalanmışdır (6 noyabr).

– M.V.Lomonosov adına MDU-nun Bakı filialında "Oksford Universiteti nəzdində Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzi" mövzusunda keçirilən "dəyirmi masa"da iştirak və çıxış etmişdir. (25 noyabr).

– Azərbaycan-Polşa əlaqələrində ədəbiyyat məsələlərinə həsr olunmuş Beynəlxalq simpoziumda iştirak və çıxış etmişdir. (26-27 noyabr, Polşa, Varşava)

– Polşa Respublikasının paytaxtı Varşava şəhərində keçirilən AMEA ilə Polşa Elmlər Akademiyası arasında əməkdaşlıq müqaviləsinin imzalanma mərasimində iştirak etmişdir (3 dekabr).

– Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında AR Prezidentinin Fərmanı ilə yeni tərkibə üzv seçilmişdir (11 dekabr).

– Nizami adına Ədəbiyyat İnstitutunda Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun nümayəndə heyəti ilə görüş keçirilmiş, Nizami adına Ədəbiyyat İnstitutu ilə Gürcü Ədəbiyyatı İnstitutu arasında qarşılıqlı əməkdaşlıq haqqında müqavilə imzalanmışdır (23 dekabr).

– Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasına üzv seçilmişdir (dekabr).

– Özbəkistan Elmlər Akademiyasının yaradılmasının 70 illik yubiley tədbirlərində iştirak etmiş, təbrik nitqi ilə çıxış etmişdir. (28 dekabr).

***2014*** – AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri – "Ədəbiyyat məcmuəsi"nin xüsusi buraxılışı baş redaktorluğu ilə çapdan çıxmışdır (yanvar).

– Nizami adına Ədəbiyyat İnstitutunun 80 illik yubileyi münasibətilə müəllifi olduğu tanıtma kitabı çap olunmuşdur (yanvar).

– "Məhdimqulu Fəraqi və dünya ədəbiyyatı" mövzusunda beynəlxalq simpoziumda Bölmə rəhbəri olmuş və məruzə ilə çıxış etmişdir (Türkmənistan, Aşqabad, 11-13 may).

– Astanada türkdilli dövlətlərin "Türk yazı günü" mövzusunda keçirilən Beynəlxalq forumda iştirak və çıxış etmişdir (Qazaxıstan, Astana, 16-17 may).

– Nizami adına Ədəbiyyat İnstitutu və Türkiyə Qafqaz Universitetlər Birliyi arasında anlaşma memorandumu imzalanmışdır.

– Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinin 45-ci ildönümünə həsr olunmuş "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik idealları və müasir dövr" mövzusunda elmi konfransda "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəqil dövlətçilik idealları və müasirlik" mövzusunda məruzə ilə çıxış etmişdir (Bakı, AMEA, 14 iyul).

– Rostov vilayətinin Vyoşenski qəsəbəsində Şoloxovşünasların "Müasir dövrdə M.A.Şoloxovun

yaradacılığının öyrənilməsi: problemlər, konsepsiyalar, yanaşmalar" mövzusunda beynəlxalq elmi konfransında "M.Şoloxov və Azərbaycan" mövzusunda məruzə ilə çıxış etmişdir(16 sentyabr).

– Ədəbiyyat İnstitutunda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş elmi sessiyada məruzəsi dinlənilmişdir (8 dekabr).

***2015*** – Nizami adına Ədəbiyyat İnstitutunda keçirilən "Uşaq ədəbiyyatı: ədəbi-tarixi ənənələri və müasir problemləri" mövzusunda respublika yaradıcılıq müşavirəsində "Müstəqillik illərində Azərbaycan Uşaq ədəbiyyatı" adlı məruzəsi dinlənilmişdir (28 yanvar).

– AMEA-da "Azərbaycanlılara qarşı soyqırımların tədqiqi" Komissiyası yaradılmış və bu Komissiyanın sədr müavini seçilmişdir.

– Nizami adına Ədəbiyyat İnstitutunda Çin Mədəniyyət Mərkəzi açılmış və burada çıxış etmişdir. (4 fevral)

– AMEA Rəyasət Heyətində "Azərbaycanlılara qarşı soyqırımların tədqiqi" Komissiyasının növbəti iclasında soyqırım tədqiqatları ilə bağlı görülən işlər barədə ətraflı hesabat vermişdir (9 fevral).

– Konfutsi İnstitutu ilə elmi əməkdaşlıq müqaviləsi imzalanmışdır (fevral).

– Quba şəhərində Heydər Əliyev Mərkəzində "Azərbaycan və Şərqi Anadolunun türk-müsəlman əhalisinin soyqırımı" (1914-1920-ci illər) adlı II Beynəlxalq elmi konfransda məruzə ilə çıxış etmişdir (10 aprel).

– Xocalı soyqırımının 23-cü ildönümünə həsr olunmuş anım mərasimində "Azərbaycanlılara

qarşı soyqırımların tədqiqi" komissiyasının fəaliyyətində soyqırımın tədqiqatları ilə bağlı görülən işlər haqqında məlumat vermişdir (12 aprel).

– "Azərbaycan müasir dünyada" mövzusunda Ümummilli Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş konfransda çıxış etmişdir (may).

– "Yeddi ulu ozan": beynəlxalq elmi simpoziumunda çıxış etmişdir (7 may)

– Qazaxıstanın paytaxtı Astana şəhərində Türk Dünyası Elmlər Akademiyaları Birliyinin yığıncağında AMEA-nı təmsil etmiş, Birliyin yaranmasına imza atmışdır (29 iyun, Qazaxıstan, Astana).

– Azərbaycan nümayəndə heyətinin tərkibində "Expo-2015" sərgisində iştirak etmişdir. Milan şəhərində şəhər bələdiyyəsində "525-ci qəzet"in baş redaktoru, şair-publisist Rəşad Məcidin italyan dilində çapdan çıxmış "O" (La Donna) adlı şeirlər kitabının və şairin şeirlərinə italyan dilində bəstələnmiş musiqilərdən ibarət diskin təqdimatı mərasimində çıxış etmişdir (13 iyul, İtaliya, Milan).

– Cüzeppe Verdi adına Milan Konservatoriyasında Rəşad Məcidə həsr olunmuş ədəbi-musiqili gecədə çıxış etmişdir.

– Avrasiya Universitetlər Birliyinin (EURAS) Bakıda 2016-cı ilin fevral ayında İstanbul Avrasiya Beynəlxalq Ali Təhsil Zirvəsinə (EURIE) hazırlıqla bağlı keçirdiyi toplantısında çıxış etmişdir.

– Qazaxıstanın paytaxtı Astana şəhərində Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı ilə Türk dünyası Ədəbiyyat institutları direktorlarının iclasında "Türk

xalqları ədəbiyyatının dövrləşdirmə konsepsiyası" mövzusunda məruzə ilə çıxış etmişdir.

– Azərbaycan Respublikası Milli Məclisinə 2 saylı Şərur seçki dairəsindən millət vəkili seçilmişdir (noyabr).

– Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq Mərkəzi ilə əməkdaşlıq müqaviləsi imzalanmışdır (20 noyabr)

– Azərbaycan Respublikası Milli Məclisi Sədrinin seçilməsinə həsr olunmuş ilk iclasında Hesablama Komissiyasına sədrlik etmişdir. Elm və təhsil Komitəsinin sədri seçilmişdir (24 noyabr).

– AMEA-nın nümayəndə heyətinin rəhbəri kimi Çin Xalq Respublikası İctimai Elmlər Akademiyasının dəvəti ilə Pekində səfərdə olmuşdur (dekabr).

***2016*** – Prezident İham Əliyevin sərəncamı ilə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESKO) üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü seçilmişdir (14 yanvar).

– Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının üzvü seçilmişdir (28 mart)

– Nizami adına Ədəbiyyat İnstitutunda görkəmli qazax yazıçısı Oljas Süleymenovun 80 illik yubileyinə həsr olunmuş təntənəli iclasda giriş nitqi ilə çıxış etmiş, "Fəxri doktor" diplomunu və xüsusi hazırlanmış mantiyanı Oljas Süleymenova təqdim etmişdir (25 aprel).

– "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri": XV beynəlxalq elmi-praktiki konfrans da məruzə etmişdir (2 may).

– “Heydər Əliyev və Azərbaycan mədəniyyəti”: elmi-praktik konfrans-telekörpüdə çıxışı dinlənilmişdir (5 may).

– Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı ilə “Böyük Çöl” adlı Birinci Humanitar Elmlər Forumunda iştirak və çıxış etmişdir. Bölmə rəhbəri olmuşdur (Qazaxıstan, Astana, 22-25 may).

– Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinə üzv seçilmişdir (3 iyun).

– Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının Siyasi Şurasının üzvü seçilmişdir (8 iyun).

– Beynəlxalq Altayşünaslıq Konfransında iştirak və çıxış etmişdir (PİAC-59. 26 iyun – 1 iyul. Ərdahan, Türkiyə)

– “İslam coğrafiyasında və Azərbaycanda xalq oyunları və meydan tamaşaları” mövzusunda Beynəlxalq elmi konfransa sədrlik etmişdir (15 iyul 2016-cı il. Bakı, Azərbaycan).

– “Azərbaycan multikulturalizmi: din və dil siyasətinin inkişaf perspektivləri” mövzusunda beynəlxalq konfransda iştirak və çıxış etmişdir (8-9 sentyabr 2016-cı il. Bakı, Azərbaycan).

– “Azərbaycan mühacirət ədəbiyyatı: reallıqlar, problemlər, vəzifələr” mövzusunda beynəlxalq konfransa sədrlik etmişdir (10-11 oktyabr. Bakı).

– Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində Azərbaycanın dövləti müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş Beynəlxalq konfransda məruzə ilə çıxış etmişdir (17 oktyabr Bakı).

– Ankarada Türkiyə Elmlər Akademiyası, Beynəlxalq Türk Akademiyası və Türk Dünyası Elmlər Akademiyaları Assosiasiyasının iştirakı ilə Birinci Türkoloji Qurultayın 90 illiyinə həsr edilmiş "Türk dünyasında elmi əməkdaşlıq və dialoq" mövzusunda beynəlxalq elmi konfransda "Birinci Türkoloji Qurultay və elmi-mədəni inteqrasiya prosesləri" mövzusunda məruzə ilə çıxış etmişdir (20-23 oktyabr).

– Asiya Elmlər Akademiyasının rəhbər heyətinə keçirilən seçkilərdə Azərbaycan Milli Elmlər Akademiyasını təmsil etmişdir (21-22 oktyabr)

– Görkəmli gürcü klassiki Şota Rustavelinin "Pələng dərisi geyinmiş pəhləvan" əsərinin 850 illiyinə həsr olunmuş beynəlxalq konfransda iştirak və çıxış etmişdir (4-5 noyabr Tbilisi,)

– Birinci Türkoloji Qurultayın 90 illiyinə həsr olunan "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda beynəlxalq konfransda iştirak etmişdir (14-15 noyabr. Bakı).

**2017** – Saib Təbrizinin yaradıcılığına həsr olunmuş beynəlxalq konfransda məruzə ilə çıxış etmişdir (13-15 yanvar.Təbriz)

– İLESAM-ın (Türkiye İlim ve Edebiyat Eseri Sahipleri Meslek Birliği) üzvlüyünə qəbul edilmişdir (14 fevral)

– Beynəlxalq Türk Mədəniyyəti Qurumu (TÜRKSOY) tərəfindən XVIII əsrin görkəmli şairi, məşhur siyasi və dövlət xadimi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi ilə əlaqədar olaraq 2017-ci ilin "Molla Pənah Vaqif ili" elan edilməsi münasibətilə beynəlxalq konfransda işti-

rak və çıxış etmişdir (01-4 mart 2017-ci il. Ankara, Türkiyə)

– Qafqazşünasların Birinci Beynəlxalq Forumunda iştirak etmişdir (17-18 aprel 2017-ci il. Bakı)

– IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı olmuşdur (Bakı, 4-6 may 2017-ci il)

– Akademik Georq Hazainin anadan olmasının 85 illiyi münasibətilə dövlət tədbirlərində iştirak və çıxış etmişdir (Budapeşt, Macarıstan. 23-27 may 2017-ci il).

– Türkmənistanda Elm Günləri çərçivəsində beynəlxalq konfransda iştirak və çıxış etmişdir (Aşqabad, 11-14 iyun 2017-ci il)

– İslam həmrəyliyi: Türkiyə-Azərbaycan dostluğu timsalında: Beynəlxalq konfransda iştirak və çıxış etmişdir(İstanbul, Türkiyə. 25 sentyabr 2017-ci il)

– "İnkişaf edən Çin və dəyişən müasir dünya" mövzusunda Beynəlxalq elmi konfransda çıxış etmişdir (Pekin, 17-18 noyabr)

– Türk Dünyası Milli Elmlər Akademiyaları Birliyinin iclasında iştirak etmişdir (Qazaxıstan, Astana, 25-27 noyabr 2017-ci il).

– Görkəmli gürcü türkoloqu, akademik Elizbar Cavelidzenin 80 illik yubiley mərasimində iştirak etmişdir (Gürcüstan, Tbilisi, 15 dekabr, 2017-ci il).

**2018** – Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi Bolqarıstan EA-da səfərdə olmuş, Bolqarıstan EA Ədəbiyyat İnstitutu ilə əməkdaşlıq memirandumu imzalamışdır (Bolqarıstan, Sofiya, 19-20 may 2018-ci il).

# Akademik İsa Həbibbəyli:
# mükafatları

# Academican İsa Habibbeyli:
# awards

# Академик Иса Габиббейли:
# награды






ДИПЛОМ
"НАГРАДЫ ТЫСЯЧЕЛЕТИЯ"


INTERNATIONAL
MILLENNIUM AWARD

***1968-ci il***

- Pedaqoji ali məktəb tələbələrinin Bakıda keçirilən Ümumittifaq konfransının diplomu ilə təltif olunmuşdur.

***1974-cü il***

- Arpaçayın dünəni və bu günü haqqında yazdığı "Arpaçayı daşa bilməz" lirik-epik poeması "Kommunist" qəzetinin "Beşillik yollarında" devizi altında keçirdiyi müsabiqədə birinci mükafata layiq görülmüşdür.

***1986-cı il***

- "Tələbələrin elmi-tədqiqat işi sahəsindəki müvəffəqiyyətlərinə görə" Ümumittifaq döş nişanı ilə təltif olunmuşdur.

***1993-cü il***

- Məmməd Araza həsr olunmuş albom-monoqrafiyaya görə "Məmməd Araz mükafatı" laureatı adı almışdır.

***1999-cu il***

- Anadan olmasının 50 illiyi münasibətilə Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.
- \- Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.
- "Ankara universitetinin fəxri dostu" seçilmişdir.

***2001-ci il***

- ABŞ-ın Bioqrafiya İnstitutu tərəfindən "İlin adamı" adına layiq görülmüşdür.

***2004-cü il***

- Türkiyə Dil Qurumu Türk dünyasında dil və ədəbiyyat sahəsindəki xidmətlərini nəzərə alaraq "Üstün Hizmət Baratı" mükafatına layiq görmüşdür.

***2007-ci il***

- Azərbaycan Respublikasının Prezidentinin 16 oktyabr 2007-ci il tarixli Sərəncamına əsasən Azərbaycan elminin və təhsilin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

***2009-cu il***

- BMT-nin nəzdində fəaliyyət göstərən Beynəlxalq İnformasiyalaşdırma Akademiyası tərəfindən Beynəlxalq "İnformasiya aləminin elitası" mükafatının diplomuna və "Elmi istiqamətin rəhbəri" medalına layiq görülmüşdür.
- Naxçıvan MR Ali Məclisinin sərəncamı ilə anadan olmasının 60 illiyi münasibətilə Fəxri Fərmanla təltif edilmişdir.
- Moskvada ali məktəblərə beynəlxalq mükafatların təqdimetmə mərasimində iştirak etmiş, Naxçıvan Dövlət Universitetinin layiq görüldüyü "Minilliyin universiteti" adlı beynəlxalq mükafat ona təqdim olunmuşdur.
- Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 3 avqust 2009-cu il tarixli sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətlərinə görə "Şərəf" ordeni ilə təltif olunmuşdur.
- Türkiyə Cümhuriyyəti Avrasiya Kültür və Sənət Qurumunun rəmzi mükafatı ilə təltif olunmuşdur.

- Türkiyə Cümhuriyyəti Hüseyn Qazi Kültür və Sənət Vəqfinin mükafatına layiq görülmüşdür.
- Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri Fərmanı ilə təltif olunmuşdur.
- Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının "XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının və Azərbaycanda müasir elmi-bədii fikrin inkişafı elmi istiqamətinin rəhbəri" mükafatı ilə təltif olunmuşdur.

***2013-cü il***

- Elm, texnologiya, təhsil sahəsində Beynəlxalq Sokrat Komitəsi, Avropa Biznes Assambleyası, Avropa Rektorları Klubu və dünyanın 16 aparıcı dövlətinin ən mötəbər elmi-yaradıcı birliklərinin təsis etdiyi "The Name in Science Award" ("Elmdə ad") mükafatına layiq görülmüşdür.

***2015-ci il***

- Beynəlxalq Bioqrafiya Mərkəzinin "Təhsil-2015 Nailiyyətlər Ordeni" ilə təltif olunmuşdur (Avqust, 2015-ci il. Böyük Britaniya).
- Yeni Yurd Sosial İnkişaf İctimai Birliyinin 10 illiyi münasibətilə təsis edilmiş "Böyük yurdsevər" mükafatına layiq görülmüşdür.
- Elmi tədqiqatlarında Şəhriyarın yaradıcılığına geniş yer verdiyinə görə"M.Şəhriyarın mədəniyyət ordeni" ilə təltif edilmişdir Beynəlxalq Türk Akademiyasının gümüş medalı ilə təltif olunmuşdur.
- Birləşmiş Millətlərin ictimai təltiflər üzrə Şurası Beynəlxalq Təltiflər İttifaqının Elm və təhsil sahəsində böyük xidmətlərinə görə "Vəzifə və Şərəf" ordeni ilə təltidf olunmuşdur, 10 dekabr 2015-ci il, Rusiya.

***2016-cı il***

- Mahmud Kaşğari Fondunun "Mahmud Kaşğari" medalına layiq görülmüşdür. 7 iyun, 2016-cı il.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dövlətçilik siyasətini uğurla həyata keçirdiyinə görə "Parlamentin səsi.tv internet televiziyasının" rəy sorğusuna əsasən "Şərəfli ömür" fəxri diplomu ilə təltif edilmişdir (iyul , 2016-cı il).
- Mətbuata göstərdiyi diqqət və dəstəyinə görə pressxe-ber.info və xəzər.info tərəfindən "El ağsaqqalı" Fəxri Media Mükafatı ilə təltif edilmişdir (İyul, 2016-cı il).
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlətçilik siyasətini uğurla həyata keçirdiyinə görə "Parlamentin səsi.tv internet televiziyasının" rəy sorğusuna əsasən "Şərəfli ömür" fəxri diplomu ilə təltif edilmişdir (iyul).
- Cənubi Rusiya Universitetinin fəxri doktoru seçilmişdir (Rostov, 5 dekabr).

**2017-ci il**

- Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazar-bayevin Sərəncamı ilə ikitərəfli münasibətlərin inkişafı, ölkələrimiz arasında dostluq əlaqələrinin möhkəmlənmə-sinə verdiyi töhfəyə görə "Qazaxıstan Respublikasının müstəqilliyinin 25 illiyi" medalı ilə təltif edilmişdir (27 noyabr).
- Gənc Türk Yazarlar Birliyinin Onur Bəlgəsi (04 dekabr) ilə mükafatlandırılmışdır.
- TÜRKSOY-un təsis etdiyi Molla Pənah Vaqif medalı ilə təltif edilmişdir (08 dekabr).

- Türkiye İlim ve Edebiyat Eseri Sahipleri Meslek Birliğinin (İLESAM) medalı ilə təltif edilmişdir (18 oktyabr).
- Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin Sərəncamı ilə ikitərəfli münasibətlərin inkişafı, ölkələrimiz arasında dostluq əlaqələrinin möhkəmlənməsinə verdiyi töhfəyə görə "Qazaxıstan Respublikasının müstəqilliyinin 25 illiyi" medalı ilə təltif edilmişdir (27 noyabr)
- Gənc Türk Yazarlar Birliyinin Onur Bəlgəsi (04 dekabr) ilə mükafatlandırılmışdır.
- Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı səfirliyi və Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin Fəxri Diplomu ilə təltif edilmişdir.

**2018-ci il**

- Azərbaycanda multikulturalizm siyasətinin tətbiqi, təbliği, eləcə də Mərkəzin layihələrində yaxından iştirakını nəzərə alaraq Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Fəxri üzvü seçilmişdir (02 aprel).
- Türkiyə Cümhuriyyəti Türk Ədəbiyyatı Vəqfinin "Şükran Beratı" ilə təltif edilib (Bakı, 10 fevral).

# Akademik İsa Həbibbəylinin fikirlərindən seçmələr

# Selected thought academician İsa Habibbeyli

# Избранные мысли академика Иса Габиббейли

*Dövlət müstəqilliyimizin iyirmi beşinci ilinin böyük reallıqları Azərbaycan Respublikasının müasir inkişafının mühüm nəticələrini və geniş imkanlarını aydın surətdə təsəvvür etməyə, təhlil edib dəyərləndirməyə tam əsas verir. Müstəqil Azərbaycan dövləti qısa müddətdə inkişaf etmiş ölkələrin sırasında dayanmağa qadir olduğunu isbat etmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik təliminin məqsədyönlü şəkildə, ardıcıllıqla və yaradıcılıqla həyata keçirilməsi ölkəmizin çoxəsrlik inkişafında yeni tarixi epoxanın formalaşdırılması ilə nəticələnmişdir.*

*Heydər Əliyev epoxası – Azərbaycan tarixinin yarım əsrə yaxın davam etməkdə olan bir dövrünün yeni inkişafının böyük reallıqlarının ümumiləşmiş yekunu və gələcək uğurlarının hərəkətverici qüvvəsi deməkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqla hakimiyyətin vəhdətinə, ümumxalq etimadına əsaslanan düşünülmüş dövlət idarəçiliyi siyasəti ölkəmizin irəliyə doğru və hərtərəfli inkişafında xüsusi bir mərhələnin yaranmasını təmin etmişdir. Dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, cəmiyyət həyatının müasirləşdirilməsi, çoxcəhətli böyük inkişafın gerçəkliyə çevrilməsi, Azərbaycan regionlarının sürətli yüksəlişinə nail olunması bu mərhələnin mühüm reallıqlarını özündə əks etdirir.*

**“ Müasir inkişafın reallıqları və üfüqləri”**

*Tarix boyu böyük ədəbiyyat həmişə dünyanın qüdrətli dövlət xadimlərinin həyatında və siyasi fəaliyyətində mühüm yer tutmuşdur. Dövlət xadimlərindən bir çoxu dünya ədəbiyyatının ən fəal mütaliəçisi kimi fərqlənmişlər. Belə siyasi rəhbərlər hətta bədii ədəbiyyata dair bilik və informasiyaları ilə ziyalı mühitini heyrətləndirmişlər. Başqa qrup dövlət başçıları şeir həvəskarları olmuş, rəğbət bəslədikləri şairlərin əsərlərini ən ciddi məclislərdə əzbər söyləmişlər. Hətta tarixdə*

*şeir yazan, dramatik əsərlərini teatrlara təqdim edən rəhbərlər də olmuşdur. Az da olsa ədəbiyyatdan, yazıçıdan uzaqda dayanan, bu sahəyə rəğbəti olmadığını gizlədə bilməyən ölkə başçıları haqqında da məlumatlar mövcuddur. Bütün bunlarla bərabər, ədəbiyyatı dövlət siyasətiin üzvi tərkib hissəsi səviyyəsində qəbul edən, bu tükənməz xəzinədən milli siyasətin həyata keçirilməsində bacarıqla və yaradıcı şəkildə faydalanan dövlət xadimləri də olmuşdur.Görkəmli dövlət xadimi Heydər Əliyevin taleyində və siyasi fəaliyyətində ədəbiyyat faktorunun yeri, rolu və imkanları çox geniş anlayış olub, yuxarıda sadalanan prinsiplərin bir çoxunu özündə cəmləşdirir. Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, Heydər Əliyev dünyada geniş və sistemli ədəbiyyat biliyinə malik olan nadir dövlət xadimlərindəndir.*

***"Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr"***



*Ədəbiyyatşünaslıq elmi Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının və ictimai fikrinin inkişafına xidmət etmək vəzifələrini məsuliyyətlə yerinə yetirir. Azərbaycanşünaslıq ideyasının formalaşması və inkişafında milli ədəbiyyatla yanaşı, ədəbiyyatşünaslıq elminin də özünəməxsus xidmətləri vardır. Geniş mənada Azərbaycanşünaslıq elmləri sisteminin tərkibində Azərbaycan ədəbiyyztşünaslıq elmi xüsusi çəkiyə malikdir. Hazırda bütövlüklə Azərbaycan Milli Elmlər Akademiyasında olduğu kimi, Nizami adına Ədəbiyyat İnstitutu da yeni islahatlar dövrünü yaşayır. Bu elmi-tədqiqat institutunda aparılan yeniləşmə və dəyişikliklər müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslıq eıminin daha dərindən və əsaslı şəkildə, ölkənin milli maraqlarına və dünya elmi-ədəbi mühitində gedən proseslərlə əlaqəli şəkildə öyrənilməsinə geniş şərait yaradır. Bu mənada 2013-cü ildə yaradılmış Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, Azərbaycan mühacirət ədəbiyyatı, Ədəbi tənqid şöbələri, Nizamişünaslıq, Füzulişünaslıq sektorları ədəbiyyatşünaslıq elminin nüfuzunun genişləndirilməsinə yeni imkanlar*

*açır... Nizami adına Ədəbiyyat İnstitutunda XXI əsrdə Azərbaycan ədəbiyyatşünaslıq elminin milli və bəşəri dəyərləri əsasında inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Ədəbiyyat İnstitutunun böyük elmi ənənələri və mühüm elmi nailiyyətləri bu elmi-tədqiqat ocağının nüfuzunu daha da artırır. Ölkənin müasir inkişaf prinsiplərinə və istiqamətlərinə uyğun olaraq Nizami adına Ədəbiyyat İnstitutu ədəbiyyatşünaslıq elmini irəli aparan əsas elmi mərkəz funksiyasını layiqincə və daha məsuliyyətlə yerinə yetirməyə ciddi səy göstərir.*

***"Nizami adına Ədəbiyyat İnstitutu: davamlı ənənələr və müasirləşmə yollarında"***



*Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda dövlət rəhbərliyinə gəlməsi ilə ölkəmizdə cəmiyyət həyatının digər sahələri ilə yanaşı, elmin də inkişafında yeni mərhələ başlanmışdır. Azərbaycan elminin inkişaf etdirilməsinə dövlət səviyyəsində böyük qayğı göstərilmiş, ölkədə alimin və elmin nüfuzu yüksəldilmişdir. Azərbaycan Respublikasının elm siyasətinin həyata keçirilməsində Elmlər Akademiyası ön mövqeyə çəkilmişdir. Azərbaycanda yarımkeçiricilər fizikası elmi məktəbini yaratmış Həsən Abdullayev (1918-1993) Azərbaycan Elmlər Akademiyasının prezidenti kimi böyük təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir. Bu zaman Azərbaycan Elmlər Akademiyasında elmin bütün sahələrinin inkişafına xüsusi diqqət yetirilmişdir. İctimai və humanitar elmlər Azərbaycanda milli ideyaların, ictimai proseslərin inkişafına xidmət etmişdir. Dövrün görkəmli alimlərindən Ziya Bünyadov, Məmməd Arif Dadaşzadə, Əhməd Mahmudov, Məmməd Cəfər Cəfərov, Əlisöhbət Sumbatzadə, Həmid Araslı, Mikayıl Hüseynov, Asəf Nadirov, Məmmədağa Şirəliyev, Firudin Köçərli və başqaları keçmiş Sovetlər İttifaqında və ölkəmizdə böyük nüfuz sahibi kimi qəbul edilən görkəmli alimlər olaraq böyük elmi məktəblərin və yeni elmi nəsillərin formalaşmasında mühüm rol oynamışlar. Haqlı olaraq 1970-1983-cü illəri əhatə edən bu tarixi mərhələ Azərbaycan*

*elminin qızıl dövrü adlandırılır. Həmin tarixi mərhələdə Azərbaycanda elmin bütün sahələrinin görkəmli liderləri meydana çıxmışdır. Aqrar elmin və biologiya elmlərinin nəticələri ölkənin iqtisadi potensialının güclənməsində əsas faktora çevrilmişdir. Akademik Cəlal Əliyevin kənd təsərrüfatının inkişafına xidmət edən tədqiqatları əsasında Azərbaycanda yeni seleksiya elmi məktəbi yaranmışdır. Akademik Zərifə xanım Əliyeva keçmiş Sovet İttifaqı miqyasında görkəmli oftalmoloq alim kimi böyük ad-san qazanmışdır. Yer elmləri üzrə Həsən Əliyev, Ələşrəf Əlizadə, Şəfayət Mehdiyev, Azad Mirzəcanzadə, Akif Əlizadə, Şirəli Məmmədov, Budaq Budaqov, Sübhi Salayev, Mustafa Hüseynov, fizika-riyaziyyat elmləri sahəsində Əşrəf Hüseynov, İbrahim İbrahimov, Arif Paşayev, İsmayıl İbrahimov, Maqsud Cavadov, Qoşqar Əhmədov, Yəhya Məmmədov, kimya elmləri üzrə Murtuza Nağıyev, Əli Quliyev, İzzət Orucova, Həbibulla Şaxtaxtinski kimi görkəmli alimlərin səmərəli elmi fəaliyyəti respublikanın ümumi inkişafına təkan vermiş, cəmiyyət həyatında böyük əks-səda doğurmuşdur.*

***"Azərbaycan Milli Elmlər Akademiyası: tarix və müasirlik"***



*С периодом Независимости связано начало нового этапа в деятельности Института Литературы. Основные направления данного этапа определяют такие приоритеты, как разработка литературоведческой проблематики в аспекте идеологии азербайджанизма, национальных интересов, расширение связей с ведущими мировыми научными центрами, привлечение к исследованию нераскрытых страниц истории отечественной литературы… Коллектив Института Литературы им. Низами НАН Азербайджана опираясь на пложотворные традиции и опыт предшествующих поколений ученых, сформировавшихся в стенах данного научного центра, используя возмож-*

*ности периода Независимости, трудится над решением проблем закономерностей национального историко-литературного процесса на путях прогресса научно-литературной и общественной мысли.*

***"Институт Литературы имени Низами"***

*Ayrı-ayrı xalqların qüdrətli yazıçıları ümummilli vəzifələrin həyata keçirilməsinin təkamül proseslərini, keçid dövrlərini, dəyişmə və dönüş məqamlarını ədəbiyyatda canlandırmaqla tarixi epoxalar və nəsillər arasında varisliyin qorunub saxlanılmasına, gələcəyə əmanət edilməsinə xidmət etmişlər. Belə məsuliyyətli və şərəfli tarixi missiyanı Rusiya üçün Lev Tolstoy rus ədəbiyyatında böyük dahiyanəliklə yerinə yetirmişdir. M.S.Ordubadinin tarixi romanları da, ümumiyyətlə müxtəlif janrlarda yazılmış qiymətli əsərləri də Azərbaycan xalqının çoxəsrlik tarixinin və keşməkeşli taleyinin ədəbiyyatı olaraq ümummilli mənafelərin ədəbi yaddaşda həkk olunması ilə yanaşı, həm də gələcəyə işıq salmaq missiyasına xidmətin ifadəsidir.*

***"Böyük ədəbiyyat nəhəngi Məmməd Səid Ordubadi"***

*Ədəbiyyatşünaslıq elminin şöbələri içərisində nisbətən daha çox mübahisə doğuran ədəbi tənqiddir. Ciddi elmi-nəzəri yanaşmalardan çıxış edənlər ədəbi tənqidi ədəbiyyatşünaslığın üzvi tərkib hissəsi olaraq qəbul edir və ona elmi istiqamət kimi baxırlar. Ədəbi tənqid müasir ədəbiyyatşünaslıq elminin ədəbi prosesi öyrənən, izləyib araşdıran, ümumiləşdirib proqnozlar verən konkret bir sahəsidir. Buna baxmayaraq, ədəbi tənqidi elm deyil, bədii yaradıcılıq sahəsi sayanlar, hətta bəzən publisistika ilə eyniləşdirənlər də vardır. Bizə görə, ədəbi tənqidə belə yanaşma daha çox yazıçı tənqidinə aid edilə bilər. Yazıçı tənqidindəelmi təhlillərdən çox ümumi yanaşmalar, zamanla səsləşmələr, müəyyən təsvir və mülahizələr öz*

*əksini tapır. Ədəbi tənqid elmində isə konkret bədii əsərlər, yaxud da ədəbi proses müasir həyatın və sənin, hətta sənətkar fəaliyyətinin işığında təhlil edilib sistemli şəkildə ümumiləşdirir, nöqsanlar, çatışmazlıqlar müəyyən olunur, yazıçıya çıxış yolları da göstərilir. Ədəbi tənqidin vəzifəsinin yalnız bədii ədəbiyyatı tənqid etməkdə görənlər də məsələyə birtərəfli yanaşırlar. Ədəbi tənqidin və tənqidçinin ana işi bədii əsərin həm üstünlüklərini, özünəməxsusluqlarını aşkar edib dəyərləndirməkdən, həm də nöqsanlarını müəyyən edib aradan qaldırılmasına köməklik göstərməkdən ibarətdir. Bizim fikrimizcə, bədii əsərin özünəməxsusluqlarını, novatorluğunu elmi şəkildə müəyyən etmək onun nöqsanlarını görüb göstərməkdən daha çətindir. Əsl tənqidçi bədii əsərə yanaşmada hər iki cəhətə eyni səviyyədə diqqət yetirməlidir. Bu məqamda ədəbi tənqid elmdir.*

***"Böyük ədəbiyyatşünaslıq uğrunda"***

*XX əsr Azərbaycan romantik lirikasında yeni forma və məzmun kəsb edən şeir şəkillərindən biri də qəsidə idi. Qəsidə Allahı tərənnüm edən minacat, peyğəmbəri tərifləyən nət, hökmdarı ilahiləşdirmək hüdudlarından çıxa bilməyən mədhiyyə, şairin özünün vəziyyətini mənalandıran fəxriyyə, matəm, kədər motivlərindən danışan mərsiyələrin şəkli əlamətlərindən getdikcə təmizlənərək, yeni keyfiyyətli vətəndaşlıq məzmunu qazanmış, daha konkret sosial-fəlsəfi xarakter almışdı. Yeni məzmunlu qəsidə ustası olan M.Hadinin bu janrda yazılmış şeirlərində Allahın və peyğəmbərlərin tərifi büsbütün tərk edilmişdi. Hökmdarın mədhini isə köhnəlmiş idarə üsulunun, yaramaz adət və ənənlərin, həyat tərzinin tənqidi əvəz etmişdi.*

***"Romantik lirikanın imkanları"***

*Ədəbiyyatın tədqiqi və təhlili baxımından Məmməd Cəfər Cəfərov üçün dövr, seçilmiş mərhələ, zaman, sənətkar məhdudiyyəti yoxdur. Hansı tarixi dövrün*

*yazıçılarından və ədəbiyyatından bəhs etməsindən, hansı ədəbi-nəzəri problemdən söz açmasından asılı olmayaraq bütün məqamlarda o, təhlillərində və dəyərləndirilməsində tam professionaldır. Görkəmli alimin əsərləri elmdə yüksək professionallığa örnəkdir. Məmməd Cəfər Cəfərovun çoxillik və çoxcəhətli elmi fəaliyyəti akademik elmin ciddiliyinə və ucalığına klassik nümunədir. Akademik elmi rütbəsinin əsl ucalığı da Məmməd Cəfər Cəfərovun bütöv şəxsiyyətinin, qiymətli əsərlərinin, elmdəki xidmətlərinin işığında aydın və cəlbedici görünür. Bədii yaradıcılıq etibarilə də Məmməd Cəfər müəllim fərqli və bənzərsizdir. «Əntiqə adamlar» kitabında toplanan nümunələr göstərir ki, əgər o, bədii yaradıcılıqla ardıcıl məşğul olsaydı, ölkəmizin sayılıb-seçilən yazıçılarından biri ola bilərdi.*

***“Məmməd Cəfər Cəfərov”***



*“Dədə Qorqud” dünya miqyasında bədii nəsr təfəkkürünün möhtəşəm abidələrindən biridir. Bu, “Dədə Qorqud” dastanlarını yaradan xalqın epos təfəkkürünün bədii mükəmməlliyinin klassik nümunəsidir. Epos təfəkkürü isə bədii fantaziyadan daha çox xalqın özünüdərkinin, sabit milli düşüncəsinin, torpaq və millət qavrayışının dastan səviyyəsində ifadəsi deməkdir. Bu mənada “Dədə Qorqud” dastanları oğuz türklərinin, Azərbaycan xalqının yurd və torpaq andının manifestidir. Bu, ölkəsini, torpağını, millətini dərindən dərk edən bir xalqın vətən və torpaq sevgisinin möhtəşəm oğuznaməsidir. Dədə Qorqud qəhrəmanları dastanlaşmış obrazlardan çox, həyat və düşüncə adamlarıdır. Dastanda rütbə, titul etibarilə yüksək mövqeyə malik olan insanlar əsas, real cizgiləri ilə əks etdirildiyi halda, cəmiyyət həyatında kiçik yer tutan sadə adamlar mümkün olduğundan qat-qat güclü şəkildə təsvir edilmişdir. “Dədə Qorqud” kiçik insanları da qüdrətli olan böyük xalqın mükəmməl dastanıdır.*

***“Qorqudşünaslıq elminin genişlənən imkanları”***

*Professor Kamran Məmmədov XIX əsr və XX əsrin əvvəlləri yazıb yaradan Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin irsini ardıcıllıqla tədqiq etmişdir. Onun Qasım bəy Zakir, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli haqqındakı sanballı monoqrafik tədqiqatları ədəbiyyat tarixi istiqamətində meydana çıxmış çox qiymətli əsərlərdir. Azərbaycan ədəbiyyatının adları çəkilən görkəmli nümayəndələrinə həsr olunmuş irihəcmli monoqrafiyalar mühüm elmi dəyəri iulə yanaşı, həm də milli ədəbiyyatşünaslıq elmimizin Qarabağnaməsi kimi də xüsusi əhəmiyyətə malikdir. Kamran Məmmədovun qələmindən çıxmış "XIX əsr Azərbaycan ədəbiyyatında satira", "Bir məclisdə on iki kişinin söhbəti, yaxud XX əsr Azərbaycan gülüşü" monoqrafiyaları satirik ədəbiyyatımızın tarixinə və ənənələrinə həsr olunmuş ciddi nəzəri-tarixi əsərlərdir. Həm tənqidi-realist ədəbiyyatımızın qüdrətli nümayəndələrindən, həm də satirik irsin tarixindən bəhs edən bu elmi əsərlər aradan uzun illər keçsə də, ideologiya dəyişsə də qətiyyən köhnəlməmiş, öz aktuallıq və müasirliyini qoruyub saxlamışdır.*

***"Kamran Məmmədov"***

*Cəlil Məmmədquluzadə bədii-ictimai fikirdə azərbaycançılıq ideologiyasının əsas yaradıcılarından biri hesab olunur. Mirzə Cəlil özü isə böyük Azərbaycan idealının Məcnunu və mücahididir. Böyük demokrat ədibin yaradıcılığı dərin, mənalı və həyəcanlı bir Azərbaycannamədir. Mirzə Cəlilin publisistikasının şah əsəri sayılmağa layiq olan məşhur "Azərbaycan" məqaləsi (1917) milli oyanış və siyasi intibah dövrünün həqiqi bədii manifestidir. "Azərbaycan" məqaləsi xalqımızın müstəqil və demokratik dövlət quruculuğu prosesindəki ümummilli vəzifələrinin publisist tərcümanı, carçısı, vətəndaşlıq harayının ifadəsidir. "Azərbaycan" məqaləsi – Azərbaycan məmləkəti coğrafiyasının vətəndaş ədib Cəlil Məmmədquluzadənin mahir qələmi ilə çəkilmiş nadir publisist xəritəsidir... Vətənçilik, milli müstəqillik və dirçəliş, tarixi ərazilərin bərpa edilməsi, ana dili,*

*milli-demokratik cəmiyyət quruculuğu kimi məsələlər Cəlil Məmmədquluzadənin azərbaycançılıq prinsiplərinin əsasını təşkil edir.*

***"Cəlil Məmmədquluzadə" (Tanıtma kitabı)***

.

*Jalil Mammadguluzadah entered the Azerbaijan literature as a great democratic writer, national.-patriotic master of word, great master of short stories. Literary-journalistic activity and many-sided work of his was dedicated to the Motherland and to the nation in a broader sense of a word. He is the most natioanl writer, at the same time the most international writer of the Azerbaijan literature. National ideas being created and formed according to the century-old literary thought developed to its highest level by the creative activity of Lalil Mammadguluzadah and became the eternal literary wealth of the Azerbaijan literature. In Molla Nasreddinian sense of nationalism the superiority is the national-moral self-understanding of the Azerbaijani people, the fate of the poor land, the thought of independence and sovereignty awakening and revival of simple, Ordinary and unfortunate men, the use the mother language in the broader sense etc. According to writer's opinion "Motherland, motherland, motherland! Language, language, language! Nation, nation, nation! There is no other rescuing way for a human being out of these circles". Jalil Mammadguluzadah's creative activity arose on these idological columnS. As the result, Jalil Mammadguluzadah is the standard-bearer and shief of the Azerbaijan natioanl literature of freedom.*

***"Jalil Mammadguluzadah"***

*Джалил Мамедкулизаде вошел в историю азербайджанской литературы как великий демократ, писатель-гражданин, большой мастер короткого рассказа. Его художественно-публицистическое творчество и многогранная деятельность в самом широком смысле*

*слова были посвящены Родине, народу. В азербайджанской литературе это один из наиболее национальных и в то же время самых общечеловеческих писателей. Национальные идеи, которые прошли многовековой процесс формирования и становления в литературной мысли, Джалил Мамедкулизаде блестяще развил в своем творчестве, превратив их в незабываемые художественные ценности нашей литературы. В понятие «молланасреддинство» входят национально-нравственное самопознание Азербайджанского народа, судьба обездоленной родины, осознание свободы и независимости, пробуждение и возрождение простого, рядового человека, широкое распространение родного языка и многое другое. «Родина, родина, родина! Язык, язык, язык! Народ, народ, народ! И нет другого пути спасения человечества вне этого круга» – так утверждал писатель гражданскую позицию. Эти идеи являются краеугольным камнем всего творчества Джалила Мамедкулизаде, знаменносца и лидера независимой азербайджанской литературы.*

***"Джалил Мамедкулизаде"***



*Hüseyn Cavidin yaradıcılığı bənzərsiz sənətkarlıq xüsusiyyətlərinə malikdir. Orijinal sənətkarlıq xüsusiyyətləri Cavid sənətinin təkrarsızlığını müəyyən edir. Bu orijinallıq Cavidin dramaturgiyasında da qabarıq şəkildə nəzərə çarpır. Onun dram əsərləri mövzusuna və ideyasına, süjeti və kompozisiyasına, obrazlar aləminə, hətta dilinə və üslubuna görə yenidir. Bu tipli dram əsərlərinə Cavidin nə özündən əvvəl, nə də ondan sonra rast gəlinmir. Hüseyn Cavidin dram əsərləri Azərbaycan dramaturgiyasının inkişafında yeni və xüsusi bir mərhələ təşkil edir. Cavidin romantik mənzum faciələri ədəbiyyat tariximizdə Mirzə Fətəli Axundovun komediyaları, Cəlil Məmmədquluzadənin tragikomediyaları ilə bir sırada dayanır.*

***"Hüseyn Cavid: taleyi və sənəti"***

*Длительное время в азербайджанском литературоведении в основе исследования и представления важнейших дат жизни и творчества писателей и поэтов лежали идеологические принципы. Более того, на значительном протяжении XX века, а именно в советский период, приходилось умалчивать, обходить стороной важную информацию из биографий мнигих писателей, предавать забвению их отдельные произведения. Лишь после обретения Азербайджаном независимости появилась возможность представлять писателей такими, какими они были в действительности... Биография писателя представляет собой неотъемлемую часть эпохи и среды, в которой он жил. Литературоведы, анализируя жизненный путь какого-либо писателя, в большинство случев либо упускали это из внитмания, либо говорили о столь общих чертах эпохи, которые не могли оказать серьезного влияния на формирование и развитие конкретного человека. В результате отдельный писатель представал перед нами как зеленое дерево в безжизненной пустыне или одиноким островом в бескрайнем океане. Это, естественно мешало всестроннему изучению его жизненного пути, творческого мира.*

***“Азербайджанская литература начала XX века”***

*İslam Səfərli yaradıcılığında romantik pafosdan, ümumi tərənnümdən lirizmə keçid çox da uzun sürməyən qısa müddət ərzində baş vermişdir. Doğrudur, romantik meyilli tərənnümçülük şairin yaradıcılığının bütün dövrlərində müşahidə olunur. Fikrimizcə, bu, həm də onun yaşadığı epoxanın özünün ideoloji pafosundan doğur. Cəmiyyətin tələbindən gələn sosial sifarişin ifadəsi olaraq yazılan şeirlərin pafos olmadan o dövrün ədəbi-ictimai mühiti səviyyəsinə çıxarılması çətin idi. Lakin İslam Səfərlinin yaradıcılığında həmin qəbildən olan şeirlər ön mövqedə görünsə də, çoxluq təşkil etməmişdir. İctimai məzmunlu romantik pafosla ifadə olunan şeirləri*

*ilə ədəbi mühitdə «sayrışan ulduzlar» kimi zəruri məqamlarda ara-sıra görünən İslam Səfərli üstünlük verdiyi lirik şeirlərini yazmağa rahat bir imkan formalaşdıra bilmişdir. O, ictimai mühitdə ümumi tərənnümdən doğan romantik pafoslu şeirləri ilə iştirak etmiş, ədəbi aləmdə isə nəğmə təsiri bağışlayan yaddaqalan, təbii və təsirli lirika nümunələri ilə dərin izlər salmışdır. Xüsusən, şəxsiyyətə pərəstiş dövrünün cəmiyyətdə aradan qalxması, siyasi iqlimin yumşalması İslam Səfərlinin yaradıcılığındakı lirizm meyillərinin sürətlə inkişaf etməsinə böyük təkan vermişdir. Beləliklə, XX əsrin əllinci illərinin ikinci yarısından etibarən İslam Səfərlinin yaradıcılığında lirizm qüvvətlənmiş, lirika üstünlük təşkil etmişdir.*

***“Romantik pafosdan lirizmə”***



*M.T.Sidqi milli uşaq nəsrinin də ilk nümunələri sayıla biləcək kiçik hekayələr yazmışdır. Lakin onun hekayələrindən elmi şəkildə söz açılmamışdır. M.T.Sidqinin uşaqlar üçün hekayələri, əsasən, “Əxlaq nümunələri” və “Qızlara hədiyyə” dərsliklərində toplanmışdır. “Əxlaq nümunələri” dərsliyindəki əksər uşaq hekayələri müəllim-yazıçının pedaqoji düşüncələrinin tərkibində verilmişdir. Həmin hekayələr müəllifin maarifçi baxışlarını əyani şəkildə əsaslandıran bədii yazılardır. Lakin imla mətni kimi verilmiş nümunələrdən pedaqoji fikir-mülahizə qatını ayırıb, hekayə hissəsini ayrıca oxuduqda bunlar bitkin uşaq hekayələri kimi səslənir. “Məktəbə davam”, “Gözü tox olan uşağın hekayəti”, “Yalançı uşaq” və sair hekayələr bu qəbildən olan maraqlı ədəbi nümunələrdir. Dərsliyin tələblərinə uyğun olaraq, həmin hekayələrdə əxlaqi məsələlər ön mövqeyə çəkilmişdir. “Qızlara hədiyyə” dərsliyindəki hekayələrin böyük əksəriyyətində isə hekayəyə məxsus xüsusiyyətlər maarifçi-pedaqoji mülahizələri üstələmişdir. Bunların çoxu indiki ibtidai məktəb dərsliklərinə salınmış kiçik hekayələr kimi sadə dildə yazılmış, yığcam, maraqlı hadisələri əks etdirən, əxlaqi-tərbiyəvi qənaətlər aşılayan yaddaqalan müstəqil bədii əsərlərdir. Dərslikdəki “Rübabə”, “Sitarə ilə xalası”, “Ruqiyyənin söhbəti”, “Öv-*

*lad məhəbbəti" və sair hekayələr milli uşaq nəsrinin ilk bitkin nümunələridir. İdeya-məzmununa görə bunları "məktəb hekayələri" kimi də dəyərləndirmək olar. Forma baxımından isə həmin nümunələr miniatür hekayə adlandırıla bilər. Təxminən bir əsrə yaxın bundan əvvəl hazırlanmış "Qızlara hədiyyə" dərsliyindəki kiçik hekayələr hazırkı mərhələdə də şagirdlər üçün faydalı xüsusiyyətlərə malikdir. Məsələn, "İki bacının söhbəti" hekayəsində əks etdirilmiş aşağıdakı nəsihətlər bu gün üçün də müasir səslənir: "Balaca bacım, sən hələ kiçiksən. Elmin məziyyətini və faydasını bilmirsən. Elə bil ki, dünyada heç bir şey elmsiz əmələ gəlməz... İnsanın hər işində və əməlində elmə ehtiyac vardır. İnsanın şərafəti və heyvan ilə insanın təfavütü elm ilə bilinir. Sən elm təhsil elə, təki dünya və axirətdə səadətmənd olasan".*

*Maarifçi şair və yazıçı olmaqla yanaşı, M.T.Sidqi həm də tanınmış alim-pedaqoq, əxlaq nəzəriyyəçisi və görkəmli məktəbşünasdır. Bununla belə, onun elmi fəaliyyətində ədəbi-fəlsəfi məsələlər də öz əksini tapmışdır. Sidqinin "Heykəli-insana bir nəzər" əsəri nəsrlə yazılmış kiçik ədəbi-fəlsəfi traktatdır. Burada müəllifin həyat və cəmiyyət, ictimai-mədəni tərəqqi haqqındakı fikir və düşüncələri əks etdirilmişdir. Sidqinin insanın formalaşması və bəşər cəmiyyətinin keçdiyi inkişaf mərhələləri barədəki elmi mülahizələri öz dövrü üçün yeni və cəlbedici idi. Buna görə də həmin əsər M.T.Sidqinin vəfatından sonra 1912-ci ildə Bakıda "Ziya" mətbəəsində kitab halında çap olunmuşdur.*

***"Böyük maarifçi ədib və müasirlik"***

*Türkçülük məsələsində "Molla Nəsrəddin" və "Füyuzat"ın qovuşduğu məqamlar mövcuddur. Burada fərq daha çox ümuminin və ya xüsusinin müdafiə edilməsində idi. Əlibəy Hüseynzadə ümumi türkçülüyün, turançılığın ideoloqudur... Bakıda nəşr etdiyi "Həyat" və "Füyuzat" kimi mətbuat orqanları vasitəsilə o, ilk növbədə Azərbaycanda türkçülük duyğusunu, milli düşüncəni oyandırmağa xidmət göstərmişdir. Ədibin ümumtürk ədəbi dili yaratmaq səylərini də milli*

*dillərin büsbütün unudulması kimi qəbul etmək doğru olmazdı. Əlibəy Hüseynzadə İstanbul ağzını əsas götürmək və onu digər türk xalqlarının dillərindən alınmış ümumişlək sözlər hesabına zənginləşdirməklə eyni kökdən olan qohum millətlərin başa düşəcəyi, ünsiyyət saxlayacağı normativ bir dil yaratmaq arzusunda idi... C.Məmmədquluzadə də ümumtürk ədəbi dili yaradılmasının faydalı bir iş olduğunu qəbul edirdi... Lakin Mirzə Cəlil əsrin əvvəllərində əhalisinin böyük əksəriyyəti yazıb-oxumaq bacarmayan Azərbaycanda vahid ədəbi dil yaratmağı zamanı qabaqlamış ideya hesab etmişdir.*

**_"Cəlil Məmmədquluzadə. Mühiti və müasirləri"_**



*Məmməd Arazın "qardaş qələmi" ilk növbədə öz ömrünü yazmışdır. Şairin taleyi kimi şerləri də bənzərsizdir. M.Arazın şerləri həm də özündən sonrakı ədəbi nəslin bədii yaradıcılığının başlanğıcıdır. Daha doğrusu, poetik dəbdəbə, ritorika, təntənə, zahiri əksetdirmə, ideoloji xəttə sədaqət kimi sənət xəstəliklərindən xilas olmaq Məmməd Araz və onun mənsub olduğu yaradıcı nəsllə əsasən başa çatmışdır. "Ürəyimsiz kəlmə yazan deyiləm" andı tərənnüm poeziyasından düşüncə lirikasına qəti keçidinin ifadəsidir. Buna görə də M.Araz sənəti bir tərəfdən yeni tipli yetmişinci illər poeziyasının fəal daşıyıcısı, digər tərəfdən isə 20 il bundan əvvəl ədəbiyyat meydanına qədəm qoyan şairlər nəslinin əsas istinadgahlarından, ilham qaynaqlarından biridir. S. Rüstəmxanlı, Hidayət, Ramiz Rövşən, Nüsrət Kəsəmənli, Çingiz Əlioğlu, hətta daha sonrakı nəslin nümayəndəsi Rüstəm Bəhrudi öz ilhamını həm də M.Araz sənətindən almışdır. Başqa sözlə, M.Araz şeiri S.Vurğun məktəbi ilə hazırki şer üslubu və ənənələri arasında çox etibarlı varislik körpüsüdür. Poeziyamızın artıq bir neçə nəsli böyük sənət meydanına həmin poetik körpüdən keçib gəlmişdir. Hazırkı mərhələdə M.Araz milli Azərbaycan şerinin görkəmli nümayəndəsidir. İndiki səviyyədə onun şerləri və poemaları, bədii publisistikası yalnız öz yaradıcısının deyil, mənsub olduğu xalqın da tərcümeyi.-halının əsas his-*

*sәsidir. İkinci dünya müharibәsindәn sonrakı tәxminәn yarım әsrә yaxın tarixi dövrün bәdii, mәnәvi tәrcümeyi-halı M.Araz sәnәtindә öz әksini tapmışdır. Bu, müdrik, ağır siqlәtli, uzaqgörәn, kövrәk vә ağıllı poeziya mәnalı әdәbi tarixi salnamәdir. Yaxın vә uzaq tariximizlә yanaşı, bu günümüzün vә hәtta sabahımızın böyük ciddi hәqiqәtlәri dә "Mәmmәd Araz karandaşından göyәrir.*

**http://www.memmedaraz.az/?menu=142**



*Çoxәsrlik inkişaf yolu vә zәngin әnәnәlәri olan Azәrbaycan elminin böyük simaları arasında görkәmli alim vә ictimai xadim, Azәrbaycan Milli Elmlәr Akademiyasının prezidenti, Dövlәt Mükafatı laureatı, Әmәkdar elm xadimi, akademik Akif Әlizadәnin özünә mәxsus mühüm xidmәtlәri vә xüsusi yeri vardır. Akademik Akif Әlizadә ölkәmizdә vә beynәlxalq alәmdә geologiya sahәsindә özünün elmi mәktәbini yaratmış, yaradıcı fәaliyyәti yüksәk tәşkilatçılıq işi, fәal vәtәndaşlıq missiyası ilә üzvi surәtdә әlaqәlәndirmәyi bacarmış böyük alim-tәşkilatçı kimi qәbul olunur. Yarım әsrdәn çoxdur ki o, geniş mәnada yer elmlәri vә tәbiәt elmlәrinin, xüsusәn dә geologiya elminin inkişafı sahәsindә yorulmadan ardıcıl vә sәmәrәli şәkildә fәaliyyәtini davam etdirmәkdәdir. Azәrbaycan Milli Elmlәr Akademiyasının prezidenti, akademik Akif Әlizadәni geniş elmi dünyagörüşlә, zәngin hәyat tәcrübәsi, çoxillik idarәetmә bacarığı ilә yanaşı, hәm dә böyük hәyat eşqi, nikbinlik sәciyyәlәndirir. Ölkәmizin әsas elmi-tәşkilati qurumuna uğurla rәhbәrlik edәn akademik Akif Әlizadә dünya әdәbiyyatına, Azәrbaycan poeziyasına da yaxından bәlәddir. Akademiya mühitindә ictimai vә elmi proseslәrin tәhlili vә istiqamәtlәndirilmәsi proseslәrindә nadir poeziya incilәrindәn, poetik nümunәlәrdәn yerli-yerindә istifadә etmәsi, möhkәm yaddaşa, mükәmmәl hafizәyә sahib olması akademik Akif Әlizadәnin böyük cavabdehlik hissi ilә yanaşı, hәm dә bu işin özünәmәxsus romantikasını da ürәkdәn vә dәrindәn yaşadığını әyani surәtdә nümayiş etdirir. Bütün bunların zәminindә akademik Akif Әlizadәnin simasında sәksәn yaşın ömrün vә fә-*

*aliyyətin dərkolunmuş yeni bir inkişaf mərhələsi olması konkret fakt və nümunə kimi cəlbedici, düşündürücü və əhəmiyyətli görünür.*

***“Mezazoy dərinliyi və müasirlik”***

*В настоящее время Рудольф Николаевич Иванов является одним из наиболее видных представителей русского азербайджановедения. На наш взгляд, профессора Рудольфа Иванова, являющегося образцом самоотверженности ученого, можно считать создателем научной школы азербайджановедения в России. Характерными особенностями его научной деятельности являются профессионализм и объективность в работе с постоянным использованием редких архивных источников. Активность использования Р.Н.Ивановым архивных источников нетрудно доказать. В фондах Российских архивов на титульных страницах папок, относящихся к крупным историческим событиям и отдельным историческим личностям Азербайджана, зафиксированы следы работы с этими материалами Рудольфа Николаевича Иванова. Наряду с документами, широко открытыми для научной общественности, Рудольф Иванов стремится ввести в научный оборот сотни политических и военно-исторических документов, которые до последнего времени выдавались исследователям лишь на основе специальных разрешений.*

*Монографии Рудольфа Иванова, являясь признанными капитальными трудами об исторических личностях, которым они посвящены, вместе с тем считаются авторитетными источниками. Эти исследования, будучи ценными историческими летописями, имеют еще и важное значение при использовании видными учеными в качестве фактографического, статистического и биографического материала. Это – богатый архив, открытый для работы видным ученым. Без преувеличения можно утверждать, что в результате многолетних поисков в архивах России и Азербайд-*

*жана редкие документы, положенные в основу его трудов, стали достоянием широкой общественности. По масштабам достигнутых результатов Рудольф Иванов проделал работу целого научно-исследовательского института. В этом смысле, труды Рудольфа Иванова можно считать надежным мостом между архивами России и учеными Азербайджана. Этот прочный мост, сооруженный на результатах многолетней научной деятельности, успешно служит научному сотрудничеству, является хорошей основой и для изучения реальной истории отношений между Азербайджаном и Россией.*

### *“Документальная эпопея «Смертельная схватка”*

*Azərbaycanda böyük uğurla keçirilən Birinci Avropa oyunları ölkəmizin çoxəsrlik tarixində nadir və parlaq hadisədir. Bu, müstəqil Azərbaycan dövlətinin yüksək inkişafının böyük göstəricisidir. Müstəqil Azərbaycan Respublikası Avropa oyunlarının ilk və mükəmməl standartlarını yaratmışdır. Bu, dünya idman hərəkatı tarixində Avropa oyunlarının Azərbaycan standartları kimi daxil olur. Fikrimcə, Avropa oyunlarının Azərbaycan standartları Avropa dəyərlərini əks etdirən ölkə ağırlıqlı təqdimatların səhnəyə çıxarılması, cəmiyyətə çatdırılması deməkdir. Avropa oyunlarının möhtəşəm açılış mərasimindəki Azərbaycanın tarixi ənənələri, müasir reallıqlarının Avropa rəmzləri ilə üzvi vəhdətdə ifadə olunmasınnın yüksək səviyyədə təşkili dünyaya çoxəsrlik beynəlxalq idman hərəkatının yeni Azərbaycan modelinin mahiyyətini bəyan etmişdir. Bu, əslində Azərbaycanın həm Avropa ilə, həm də bütövlükdə dünya ilə harmoniyasının böyük təqdimatı idi. Birinci Avropa oyunlarının simvoluna çevrilmiş Nar ilk növbədə Azərbaycanın, həm də Yer kürəsinin üzvi əlaqəsini əks etdirirdi. Alova bənzəyən Nar Azərbaycanı, qırmızı şar formasında olan iri həcmə malik Nar isə planetimizin rəmzi idi. Yəni Azərbaycan Yer kürəsi adlı planetdə Birinci Avropa oyunlarını dünya ilə birlikdə qeyd edir. Avropa*

*oyunlarındakı Nizami Gəncəvi motivləri Azərbaycanın Şərq ağırlıqlı, Qərb yönlü ölkə olduğunu dahiyanə şəkildə diqqət mərkəzinə çəkmişdir. Bu, həm də Azərbaycanın Şərqlə Qərb arasında möhkəm və etibarlı körpü rolu oynadığını da aydın surətdə nümayiş etdirmişdir. Qobustan qayaları, Xəzər dənizi, palçıq vulkanları, Səməni, Yallı və Qaytağı rəqsləri Azərbaycanın Avropa oyunlarında dünyaya göstərdiyi böyük mədəniyyət və milli sərvətlərdir…*

*Birinci Avropa Oyunlarının Azərbaycanda təşkili və keçirilməsi ölkəmizin Prezidenti İlham Əliyevin dünya miqyaslı bir dövlət xadimi olduğunu isbat edir. Prezident İlham Əliyevin qlobal siyasi təfəkkürü, Qərb dəyərlərinə dərindən bələdliyi, milli düşüncəsi, xalqına və ölkəsinə ürəkdən bağlı olması, böyük təşkilatçılıq mədəniyyəti və uzaqgörən gələcəkçi baxışları Avropa Oyunlarının möhtəşəm yekununun əsas faktıdır... Müstəqil Azərbaycan dövlətinin böyük sükançısı Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük sürətlə inkişaf edən ölkəmiz bu gün istənilən sahədə böyük yürüşə hazır olduğunu nümayiş etdirir.*

***“Avropa Oyunlarının Azərbaycan standartı”***

# Görkəmli şəxsiyyətlər İsa Həbibbəyli haqqında

*Mənim fikrimcə, İsa Həbibbəylinin "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" adlı dissertasiyası bizim filologiya elminə yenilik gətirən və romantik lirika haqqında təəssürat yaradan orijinal bir tədqiqat əsəridir. Orijinallığı bir də o cəhətdəndir ki, burada lirikanın daha çox poetikasından, üslublarından və janr xüsusiyyətlərindən danışılır... Daim axtarışda olmaq İsa Həbibbəylinin özünəməxsus xarakteridir.*

*Onun XX əsrin əvvəllərində Naxçıvan ədəbi mühiti barədəki axtarışları və tapıntıları məni heyrətləndirdi. Mən heç inanmazdım ki, Naxçıvanın ədəbi-mədəni mühiti bu qədər zəngin olmuşdur.*

*İsa Həbibbəyli mirzəcəlilşünas alim kimi də özünü təsdiq etmişdir.*

**Məmməd Cəfər Cəfərov,**
*AMEA-nın həqiqi üzvü*

*Cavan tədqiqatçı İsa Həbibbəylinin son illərdə Mirzə Cəlilin həyat yolu, yaradıcılığı, dövrün ədəbi mühiti və yazıçının müasirləri ətrafında apardığı axtarışlar bu istiqamətdə yeni araşdırmalara olan ehtiyacı və zərurəti nəzərə çarpdırır. Onun görkəmli ədibin daha üç pyesini üzə çıxarması fərəhli hadisədir. "Ər", "Lənət" və "Oyunbazlar" adlanan bu pyeslər bütün xüsusiyyətləri ilə Cəlil Məmmədquluzadənin yaradıcılıq ənənələri ilə səsləşir.*

*Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri hansı xətlə yazılmışsa, dörd pərdəli "Ər" pyesi, "Lənət" və "Oyunbazlar" səhnəcikləri də həmin xətlə qələmə alınmışdır. Bu əsərlərin çap olunaraq ictimaiyyətə, geniş oxucu kütləsinə çatdırılması əhəmiyyətli hadisə ola bilər.*

**Abbas Zamanov,**
*AMEA-nın müxbir üzvü*

*Mən İsa Həbibbəylinin bir "cəlilşünas" kimi hansı ehtiras, şövq, həvəslə, hansı enerji ilə işləməsinin bilavasitə şahidi olmuşam: 80-ci illərin sonlarında İsa Həbibbəyli məhz həmin tədqiqatçı ehtirası və enerjisi sayəsində "Vətən" Cəmiyyətinin köməyi və iştirakı ilə Mirzə Cəlilin dünyanın bir çox ölkələrinə səpələnmiş nəvə-nəticələrini tapdı, onlarla əlaqə yaratdı, görüşdü və bu işi sonralar da böyük bir təşəbbüskarlıqla davam etdirdi.*

*İsa Həbibbəyli Cəlil Məmmədquluzadənin, Həmidə xanımın və onların övladları Münəvvər, Midhət və Ənvər Məmmədquluzadələrin bir çox məktublarını tapıb-toplamış və ilk dəfə olaraq böyük Məmmədquluzadələr ailəsinin məktublarından ibarət kitab hazırlamışdır.*

***Elçin,***
*Xalq yazıçısı*

*İsa Həbibbəylinin araşdırmaları yüksək elmi dəyərə malikdir. Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin tərcümeyihalının yenidən öyrənilməsi, ədibin nəsil şəcərəsinin müəyyən edilməsi, nəvə-nəticələrinin aşkara çıxarılması İsa müəllimin adı ilə bağlıdır. İsa Həbibbəyli həmçinin Mirzə Cəlilin üç naməlum səhnə əsərini aşkara çıxarmış, təhlil edib dəyərləndirmişdir. Beləliklə, o, fədakar mirzəcəlilşünas alim olduğunu sübuta çatdırmışdır.*

***Anar,***
*Xalq yazıçısı*

*Akademik İsa Həbibbəyli hər şeydən əvvəl ölkənin məhsuldar alimlərindən biri kimi xarakterizə olunur... Azərbaycan ədəbiyyatşünaslıq elminin XIX-XXI əsrlər üzrə problemlərinin öyrənilməsində və həllində akademik İsa Həbibbəylinin elmi əsərlərinin xüsusi yeri və əhəmiyyəti vardır. İsa Həbibbəyli Azərbaycan mirzəcəlilşünaslıq elminin inkişafında yeni mərhələ yaratmışdır. İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatının çoxəsrlik tarixinə və ədəbiyyat nəzəriyyəsi məsələlərinə həsr etdiyi əsərlər müstəqillik dövrü Azərbaycan elminin qiymətli səhifələrini təşkil edir.*

*Geniş elmi dünyagörüşə malik olmaq akademik İsa Həbibbəyli üçün səciyyəvidir.*

**Mahmud Kərimov,**
*akademik*

*Ölkəmizdə, yaxın-uzaq xaricdə yaxşı tanınan və əsərləri təqdir olunan İsa Həbibbəyli görkəmli ədəbiyyatşünas alim, təcrübəli təhsil təşkilatçısı və yorulmaz ictimai xadimdir, qeyrətli, cəfakeş Azərbaycan ziyalısıdır. O, müstəqil Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyevin yetişdirdiyi, etimad və etibar edib irəli çəkdiyi peşəkar rəhbər xadimlərdən biridir...*

*İsa Həbibbəyli akademik Məmməd Cəfər Cəfərovun məşhur "Ədəbiyyat nəzəriyyəsi" şöbəsinin yetirməsi və hamımızın müəllimi, mənəvi atamız olmuş Məmməd Cəfərin ən layiqli davamçısıdır.*

**Bəkir Nəbiyev,**
*akademik*

*Görkəmli alim, akademik İsa Həbibbəyli Azərbaycanda milli ədəbiyyatın və ictimai fikrin tədqiqi və təbliğində yorulmadan çalışan bir şəxsiyyətdir. Mən uzun illərdən bəri onu tanıyıram və onun mədəni fəaliyyəti və əsərləriylə tanışam. O, atası kimi peşəkar bir müəllimdir və həyatını öyrənməyə və öyrətməyə vəqf etmişdir, ancaq türkcə bir məsəl (atalar sözü) vardır, deyərlər: "Atamdan irəli, oğlumdan geri". İsa bəy bu atalar sözünün tam misalı və nümunəsidir.*

*İsa müəllimin Tehranda Cəlil Məmmədquluzadənin nəvə-nəticələrini tapıb onlarla görüşlər keçirməsi ədəbiyyat tariximizin unudulmaz səhifələrinə çevrilmişdir.*

**Cavad Heyət,**
*akademik*

*Akademik İsa Həbibbəyli müasir, qlobal elmi təfəkkürə malik, informasiya cəmiyyəti ideyalarının daşıyıcısı olan bir alimdir. "Elektron Naxçıvan" ideyasının reallaşdırılmasında*

*xüsusi rolu, bölgədə informasiya-kommunikasiya texnologiyalarının inkişaf etdirilməsində, informasiya cəmiyyətinin qurulmasında onun mühüm əməyi vardır.*

**Rasim Əliquliyev,**
*akademik*

*Tələbə vaxtlarından elmə fanatik münasibət bəsləyən, bütün həyatını elmi axtarışlara həsr edən İsa Həbibbəyli respublikamızda və onun hüdudlarından kənarda məhsuldar bir ədəbiyyatşünas alim kimi tanınır. Geniş elmi biliyi və dünyagörüşü, zəngin məlumatlılığı, güclü məntiqi və təhlil etmək qabiliyyəti bir ədəbiyyatşünas kimi onu şöhrətləndirmişdir. Hansı sahədə, hansı vəzifədə işləməsindən asılı olmayaraq o, elmi fəaliyyətdən özünü kənarda hiss etməmiş, daim səmərəli elmi araşdırmalar aparmışdır...*

*İsa müəllim özünün görkəmli elm adamı olduğunu çoxdan sübut etmişdir.*

**İsmayıl Hacıyev,**
*AMEA Naxcıvan Bölməsinin sədri, akademik*

*Нельзя пройти мимо важной особенности творений писателя И.Габиббейли. Он возрождает из пепла знаменитых людей, по достоинству восстанавливает их имена в истории. Забытая легендарная личность – Мамед Ага Шахтахтинский, благодаря писательскому подвигу профессора И.Габиббейли, несколько лет назад начала вторую и уже долгую жизнь.*

*Среди многочисленных итогов плодотворной деятельности Иса Габиббейли – его научная школа. Она постоянно пополняется докторами и кандидатами наук. Академик Иса Габиббейли щедро передает своим питомцам проверенные методы научных изысканий и нарвственное богатство.. Состоять в научной школе Иса Габиббейли – счастливый случай в жизни молодых ученых и большая честь.*

**Rudolf İvanov,**
*Qafqazşünas alim, yazıçı*

*Akademik İsa Həbibbəylinin çox dərindən araşdırdığı XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbi-ictimai-fəlsəfi fikrində belə bir gözəl anlayış var: "vətəndust". Vətəndaşlığın ana özəyi sayılan bu keyfiyyət istisnasız olaraq o dövrün ən böyük patriot ziyalılarının ayrılmaz sifətlərindən birini təşkil etmişdir.*

*İsa Həbibbəyli də, hər şeydən öncə vətəndustdur.*

**Teymur Kərimli,**
*akademik*

*Yaşımızdakı böyük fərqə baxmayaraq, professor İsa Həbibbəylini təkcə həmkarım yox, dünənki və bugünkü ağsaqqal nəsillərin fəal və layiqli davamçısı sayıram. İsa Həbibbəylinin tədqiqatlarının əsas məziyyəti o vaxta qədərki ədəbiyyatşünaslıqda az öyrənilmiş və demək olar ki, diqqəti cəlb etməmiş elmi-nəzəri məsələlər, hadisələr, şəxsiyyətlər, əsərlər haqqında təhlil və qiymətlərdədir. O, ədəbiyyat nəzəriyyəsi ilə ədəbiyyat tarixçiliyinin imkanlarından birgə, sintez halında istifadə etməyi bacarır.*

*İsa Həbibbəyli dövrün ən fədakar məmmədquluzadəşünasıdır... Hiss olunur ki, artıq İsa Həbibbəyli dövr və problem çərçivəsinin sədlərini aşmaqdadır...*

**Əziz Mirəhmədov,**
*AMEA-nın müxbir üzvü*

*Həm tənqid, həm də ədəbiyyatşünaslıqla paralel məşğul olmaq yetmişinci illərin gəncliyi üçün sanki fəaliyyət prinsipinə çevrilib. Bu qoşalığı, vəhdəti biz İsa Həbibbəylinin də nümunəsində görürük. Belə qoşalıq ünsiyyətə və vəhdətə köklə zirvənin, keçmişlə indinin, ənənə ilə novatorluğun arasında nail olmağa imkan yaradır... İsa Həbibbəylinin Azərbaycan romantik şerinin, realist ədəbi hərəkatının, müasir ədəbi prosesin müxtəlif problemlərindən bəhs edən əsərləri onun səmərəli axtarışlarının nəticəsi kimi nəzərə çarpır...*

**Yaşar Qarayev,**
*AMEA-nın müxbir üzvü*

*İsa Həbibbəyli birincisi Allahın yetişdirdiyi istedaddır. Yəni bu nə oxumaqla, nə ora-bura qaçmaqla, nə daş daşımaqla mümkün olan bir şey deyil... İkinci bir İsa Həbibbəyli var ki, heç nədən yorulmayan, daim çalışan. Səhv etmirəmsə rəhmətlik Əziz Mirəhmədov getdiyi arxivlərdə də İsa Həbibbəylinin adına rast gəldiyini deyirdi.*

*Üçüncü cəhəti odur ki, İsa müəllimdə o cəhət var ki, o, müəllimlərinə qarşı ata-anasına bəslədiyi məhəbbət qədər məhəbbət bəsləyib və bunu hətta yazıb. İsa müəllimə istənilən müəllimi haqqında söylənsə ki, sənin müəllimin filan ədəbiyyat məsələsini, filan metodoloji məsələni və sairəni düzgün etməmişdir o, sübut edəcək ki, o, çox dəqiq həll etmişdir. İsa müəllim çox yaxşı müəllimdir. Mən hələ görməmişəm ki, İsa müəllim tələbələri haqqında mənfi söz söyləsin. Yəni tələbələrinə məhəbbət çox mühüm şeydir.*

*İsa müəllim bizim hər birimiz haqda məqalə yazıb... Biz hamımız onu müəllim kimi qəbul edirik. Çünki müəllim o deyil ki, ancaq dərs desin. Kitab yazırsa, oxuyuruqsa, öyrəniriksə və bizi müdafiə edirsə, bizim də müəllimimizdir. İsa müəllimdə təmənna yoxdur.*

*Və İsa müəllimin beşinci cəhəti. İsa müəllim ailə, nəsil, şəcərə məsələsinə çox həssas adamdır. İsa müəllim bizim ədəbiyyatçılar içərisində öz nəslini, şəcərəsini çox yaxşı bilən 5-6 adamdan biridir. Bu da elə bir məsələdir ki, nəslinə, kökünə bağlı olmayan insanın, onların qarşısında məsuliyyət daşımayan insanın gələcək nəslin qarşısında məsuliyyəti yoxdur.*

*İsa müəllimin altıncı cəhəti onun bütün intellekti, səviyyəsi ilə milli təfəkkürü, dövlətçilik mövqeyi və bunları birləşdirmək bacarığıdır. Bizim taleyimiz, tariximiz belə olubdur ki, kim milli olubsa, onun dövlətçilik təfəkkürü olmayıb, kim dövlət adamı olubsa onun milli təfəkkürü olmayıb. ...Və bu mənada İsa müəllim həqiqətən o xüsusiyyətləri özündə cəmləşdirir. Yəni ədəbiyyata, elmə bu qədər sədaqətli olasan və bu qədər dövlətçilik təfəkkürün*

*ola. O ki qaldı yeddinci cəhətə, orda da çox şeylər var. O da İsa müəllimin insanlığıdır. İsa müəllimin dostluğudur.*

**Nizami Cəfərov,**
*akademik*

*İsa Həbibbəyli əsil alimdir. Bütün ömrü boyu yorulmadan çalışıb və çalışmaqdadır. Dünya arxivlərini gəzməkdən, axtarmaqdan yorulmayıb, ədəbiyyatşünaslığımızı böyük tapıntılarla zənginləşdirib, onlarla kitab yazıb və nəşr etdirib. Bunlar öz yerində. Ancaq mən Naxçıvan Dövlət Universitetini də çəkinmədən İsa Həbibbəylinin əsəri hesab edirəm... Onun bütün həyatı Naxçıvanı Azərbaycan ədəbi fikrinin və təhsilinin əsas mərkəzlərindən birinə çevirmək uğrunda mübarizə yoludur... İsa Həbibbəyli Azərbaycanın o ədəbiyyatşünas alimlərindəndir ki, onlar ilkin mənbələrə söykənmədən, araşdırdığı yazıçının bütün irsini diqqətli öyrənmədən onun haqqında söz demirlər. Bu mənada, o, həm də ciddi bir mətnşünas və klassik ədəbiyyatımızın sirlərinə bələd olan və indi sayı xeyli azalmış nadir cəfakeşlərdən biridir...*

**Sabir Rüstəmxanlı,**
*Xalq şairi*

*Bazi kimseler samimiyyetleriyle, insanlara gösterdikleri temennasız ilgiyle, toplumda sevgi ve sayqı kazanır, etrafina güven telkin ederler... İsa Hebibbeyli işte böyle nadir şahsiyetlerden biridir; insanlarla temennasız dostluklar kurar ve onun devamı için gerektiginde fedakarlık yapmaktan çekinmez... İsa bey, benim için sadece samimi bir dost, bir mefkure arkadaşı degildir. O aynı zamanda görkemli bilim adamıdır. Azerbaycan edebiyatına, genelde kültür hayatına – yürekten gelen bir sevgiyle, gerçek vatandaşlık anlayışından kaynaklanan bir şüurla bağlıdır.*

*İsa Hebibeyli dostumuz, sadece ilmi araştırmalarla, ögretim faaliyetiyle yetinmiyor, onun içtimai, siyasi, idari işleri de insanı şaşırtacak kadar geniş...*

**Yavuz Akpınar,**
*Ege Universitetinin (İzmir) professoru*

*Həyatda, yaşadığımız dövrdə elə tarixi və həm də şərəfli missiyalar olur ki, onları yerinə yetirməyi Tanrı dediyimiz o böyük qüvvə yalnız sevib-seçdiklərinin taleyinə yazır. Tanrının sevib-seçdiyi belə xoşbəxt adamlardan biri də Sizsiniz ki, Azərbaycan elminin, mədəniyyətinin, ictimai və siyasi düşüncəsinin inkişafında tarixən müstəsna xidmətləri olan Nizami adına Ədəbiyyat İnstitutunun 80 illik yübiley bayramını keçirmək kimi ali bir missiya Sizin taleyinizə yazıldı. Və bu da Sizin zəngin, həm də şərəfli tərcümeyi-halınızın silinməz səhifələrindən birinə çevrildi... Bu gün Nizami adına Ədəbiyyat İnstitutu bilavasitə Sizin rəhbərliyinizlə dünyanın bir çox aparıcı elmi-tədqiqat institutları, müəssisələri ilə qarşılıqlı işbirliyi şəraitində öz işini qurmaqdadır. Nizami adına Ədəbiyyat İnstitutu bundan sonrakı fəaliyyəti və uğurları ilə elmimizin, mədəniyyətimizin inkişafında müstəsna rol oynayacağına qəlbən inanıram.*

**Vilayət Quliyev,**
*filologiya elmləri doktoru, professor*

*Ustad ədəbiyyatşünas və tanınmış ictimai xadim, millət vəkili, akademik İsa Həbibbəylinin adı təkcə Azərbaycanda deyil, yaxın və uzaq ellərdə böyük hörmət və ehtiramla çəkilir. Akademik İsa Həbibbəyli bütün nüfuzlu tribunalarda öz xalqının zəngin mədəniyyəti, ədəbiyyatı, tarixi, mədəni və maddi irsindən böyük cəsarət və təmkinlə söz açır, Azərbaycan xalqını ləyaqətlə təmsil edir...*

**Azad Nəbiyev,**
*AMEA-nın müxbir üzvü*

*İsa Əkbər oğlu Həbibbəyli. Bu ad çox şey deyir, əslində hər şey deyir. Bu ad və onun sahibi hər bir tituldan yuxarıda durur. Ad mənasında, tarix bizə çox nümunələr göstərir. Cəmiyyətdəki, insanlar arasındakı şəxsi mövqelərinə görə vəzifəsindən, dərəcəsindən, elmi adından yüksəkdə duran insanların adlarının qabağında heç bir təyin işlədilmir... İsa Həbibbəyli Azərbaycan elminə, Azərbaycan filologiyasına yeni nəfəs gətirən böyük alim-*

*dir; bugünkü ədəbiyyatşünaslıq elmimizə istiqamət verən tədqiqatçıdır...*

*...İsa Həbibbəyli ya yeni söz deyir, ya da yeni fakt və sənədi təqdim edib açıqlayır. Məsələnin hər iki qütbü faydalıdır. Maraqlı cəhət bundan ibarətdir ki, İsa Həbibbəyli bu qütblərin üzvü sintezinə nail olmağı bacarır. Ona görə də sadəcə oxunan əsərlər yox, həm də qalan , yaşayan əsərlər yarada bilir.*

**Yusif Seyidov,**
*filologiya elmləri doktoru, professor,*
*Əməkdar elm xadimi*

*İndiyədək Azərbaycan ədəbiyyatşünaslığında əsasən konkret ədəbi şəxsiyyətlərin həyat və yaradıcılığı, ayrı-ayrı əsərləri tədqiqat obyekti seçilmiş və araşdırılmışdır. İsa Həbibbəylinin "XX əsr Azərbaycan romantik lirikası" adlı namizədlik dissertasiyası ayrı-ayrı ədəbi şəxsiyyətlərə və ya bədii əsərlərə deyil, əsrin əvvəllərində meydana çıxan romantik lirikanın bütöv mənzərəsinə, şeirin bu qolunun mövzu və ideyalar aləminə, poetik formalarına, dil və üslub xüsusiyyətlərinə həsr olunmuş ilk müstəqil tədqiqat əsəridir... İsa Həbibbəyli romantizmə dair axtarışlar aparan müəlliflər içərisində birinci dəfə olaraq romantik lirikanın janrlarını və üslublarını tədqiqata cəlb etmişdir.*

**Kamran Məmmədov,**
*filologiya elmləri doktoru, professor*

*Biz indiyə qədər oxuduqlarımızı yenidən oxumalıyıq. Onların indiyə qədər görə bilmədiyimiz, yaxud görmək istəmədiyimiz cəhətlərini ortaya çıxarmalıyıq. Bu yolla nəhayət, Azərbaycanın həqiqi ədəbiyyat tarixini yaratmalıyıq. Dediyimiz istiqamətdə İsa Həbibbəyli ilk ləpirçidir. O, Cəlil Məmmədquluzadə yaradıcılığına müraciət etmiş, böyük demokratın son dərəcə şərəfli, qəhrəmanlıq və məhrumiyyətlərlə dolu həyat və yaradıcılıq yolunu yeni ahəngdə araşdırmışdır. Bu mənada İsa Həbibbəylinin "Cəlil*

*Məmmədquluzadə: mühiti və müasirləri" mövzusunda yazılmış monoqrafiyası ədəbiyyatşünaslığımızda yeni mərhələnin təməlini qoyur və təzə ab-havada araşdırmaların istiqamətini müəyyənləşdirmək üçün hər cəhətdən rəqabətli görünən nümunə verir.*

**Xeyrulla Məmmədov,**
*filologiya elmləri doktoru, professor*

*Çəkinmədən deyə bilərik ki, tədqiqatçının səyi və fədakarlığı sayəsində ədibin (Cəlil Məmmədquluzadənin) həyat və yaradıcılığında qaranlıq nöqtələr qalmamışdır. Onu da deyək ki, İsa müəllim qazanılan uğurlarla kifayətlənməmişdir. Akademikin yaradıcılığını izləyənlər yaxşı bilirlər ki, alim dövr və problem çərçivəsinin sərhədlərini çoxdan aşmışdır. Ədəbiyyatşünaslıq elmimizdə, bu elmin görkəmli nümayəndələrindən söz düşəndə göz önünə ilk gələnlərdən biri də akademik İsa Həbibbəyli olur. İsa müəllimin əsərləri istər kəmiyyət, istərsə də keyfiyyətcə fərqlənir.*

**Qəzənfər Paşayev,**
*filologiya elmləri doktoru, professor*

*O, geniş dünyagörüşü, hərtərəfli hazırlığı, təşkilatçılıq qabiliyyəti, özünün istedadı ilə yoldaşları və əməkdaşları arasında, əlbəttə, Naxçıvanda, həm də Bakıda olduğu kimi, xarici ölkələrdə də diqqəti çəkir. Cəlbedici həyati baxışlara, müasir düşüncə tərzinə və səfərbərlik bacarığına malik olan professor İsa Həbibbəyli öz azərbaycanlı əməkdaşlarını olduğu kimi, eyni zamanda yaxın və hətta uzaq ölkələrdə də dostlarını və həmkarlarını bir yerə toplaya bilir. Bu beynəlxalq əlaqələr öz növbəsində əməli nəticəsini tapır. Həmin əlaqələrin təcəssümüdür ki, Parisdə türk şairi Nazim Hikmətlə bağlı cildin azərbaycanlı yazıçı dostlarının şəkilləri ilə nəşr etdirilməsində biz onun yaxından köməyindən istifadə etdik. Akademik İsa Həbibbəylinin görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadə haqqında Parisdə çap etdirdiyi irihəcmli və məzmunlu məqaləsi fransız alimlərinin böyük marağına səbəb oldu. Bir çox fransız alimləri belə bənzərsiz bir*

*Azərbaycan yazıçısını indiyədək tanımadıqlarına təəssüf etdiklərini mənə bildirirlər.*

**Mişel Bozdemir,**
*Fransa Şərq Dilləri və Mədəniyyəti İnstitutunun professoru*

*İsa Həbibbəyli dünyagörüş etibarilə Azərbaycançıdır. Onun "Azərbaycançılıq məfkurəsi yollarında" adlı məqaləsi həm yeni axtarışlar və tapıntılar baxımından, həm də müəllifin mövqeyini əks etdirmək baxımından olduqca əhəmiyyətlidir. Böyük Mirzə Cəlilin ədəbiyyatda Azərbaycançılığın möhkəm bünövrəsini təşkil edən əsərləri İsa Həbibbəyli üçün bütün üstün keyfiyyətləri ilə bir sırada həm də Azərbaycançılıq ruhunun manifesti olduğu üçün qiymətli və doğmadır. Ümumiyyətlə, akademik İsa Həbibbəyli ədəbiyyatşünaslıq elminin məlum şöbələri, hətta özünün müəyyən etdiyi iki yeni şöbələr də daxil olmaqla bütün istiqamətlərdə ciddi elmi söz deməyi bacarır. Bu, akademik İsa Həbibbəylinin böyük uğuru və özünəməxsusluğunun konkret elmi ifadəsidir. O, ədəbiyyat tarixçiləri sırasında da, ədəbiyyat nəzəriyyəçiləri arasında da ön cəbhəni təmsil edir.*

**Yavuz Axundlu,**
*filologiya elmləri doktoru, professor*

*Bu gün biz İsa Həbibbəylidən yalnız filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü kimi yox, həm də alim-vətəndaş kimi söhbət açırıq. Alim İsa Həbibbəylinin yolu, söz yox ki, çağdaş ədəbiyyatşünaslıq elmimizin səviyyə və simasının göstəricisinə çevrilən qiymətli əsərlərin yazılması ilə müəyyənləşir. Alim-vətəndaş İsa Həbibbəylinin yolu elm və mədəniyyət problemlərinin, eləcə də ictimai-siyasi məsələlərin qızğın müzakirə edildiyi auditoriyalardan, həmin problem və məsələlərin praktik olaraq həll edildiyi rəsmi dairələrdən keçir. Əlbəttə, bu çətin yoldur. Öz sələflərinin ənənələrini davam etdirib, görkəmli pedaqoq və ictimai xadim kimi tanınan İ.Həbibbəylinin sırf*

*ədəbiyyatşünaslıq fəaliyyətindən danışsaq, hər şeydən əvvəl, qeyd etməliyik ki, bu ədəbiyyatşünaslıq hərtərəfli və çoxşaxəli olması ilə seçilir... Dövrdən dövrə, şəxsiyyətdən şəxsiyyətə, ədəbiyyatın bir sahəsindən o biri sahəsinə keçərkən mövzunu dəyişməyə, yeni mövzu ətrafında yeni mövzu yaratmağa nail olur. Ona görə ki, o, ilk növbədə nəzəriyyəçi alimdir, ədəbi faktın nəzəri mahiyyətini görə, göstərə və nəzəri mübahisələr aça bilir...*

**Muxtar İmanov,**
*akademik*

*Onun içərisində olan enerjini, orijinal baxışı, şövqü və coşqunu yazılarında həmişə hiss etmişik. Mən İsa müəllimin necə mərd insan olduğunu görmüşəm.... Bizim uzaqdan gördüyümüz təmkinli, sanballı, öz soyuqqanlılığını qoruyan İsa müəllimin daxilində çox böyük şövq, çox böyük coşqu və enerji var. Və mən belə hesab edirəm ki, bütün keyfiyyətləri hamısı daxildə olan o ruhun, tükənməz enerjinin sayəsindədir.*

**Rəşad Məcid,**
*yazıçı-publisist*

*Naxçıvanda bir adam var –*
*Könlümüzü görən adam.*
*Bu işığı hardan aldın,*
*Ay işıq gəzdirən adam.*

*Mən sevimli müəllimim İsa müəllimdən söz düşəndə həmişə yadıma düz 25 il bundan əvvəl baş vermiş bir hadisə gəlir. Gözəl və böyük şairimiz Sabir Rüstəmxanlı ilə Naxçıvana getmişdik. Milli azadlıq hərəkatının ilk cücərtiləri göyərirdi. Naxçıvanda Şərurda görüş keçirməli idik. Təbii ki, Sabir müəllimlə aspirantlıq dostu olan İsa müəllim keçiriyimiz görüşlərin həm rəhbəri, həm də təşkilatçısı idi. Bizim görüşlərimizdən rahatsız*

*olan rayon rəhbərliyi gecə, görüş vaxtı işıqları söndürdü. 200-dən çox adamın yığışdığı salon qaranlığa qərq olmuşdu. Birdən-birə İsa müəllimin və qardaşlarının əllərində məşəl yanmağa başladı. Biz İsa müəllimin tutduğu məşəlin işığında şeir oxuyurduq. İsa müəllim illər boyu içində qoruyub saxladığı işığı, məşəli çevirib başının üstünə qaldırmışdı. İlk dəfə orda ağlıma gəldi ki, İsa müəllim təkcə işıqlı adam deyil, o həm də işıq gəzdirən adamdır. Düz 25 il bundan əvvəl yandırdığı məşəlin işığında bu gün İsa Həbibbəyli Sidqinin, Cavidin, Mirzə Cəlilin, Qəmkusarın canlı, möhtəşəm heykəli kimi dayanıb. Zamanın əsən rüzgarları onun eyninə deyil.*

**Rüstəm Behrudi,**
*şair*

*Я приезжала в Нахчыван по служебным делам еще не раз. И всякий раз удивлялась и радовалась происходящим там переменам. Мне не однажды доводилось посещать Нахчыванский государственный университет, который с назначением ректором Исы Габиббейли менялся стремительно, причем в лучшую сторону. Пожалуй, это учебное заведение, ставшее флагманом инновационных идей и передовых технологий в республике, завязавшее самые различные связи и научные контакты с вузами Востока и Запада, открытое всему новому и передовому в образовании, является любимым детищем академика Исы Габиббейли. Студенческий городок в автономной республике стал духовным и культурным центром этого края.*

**Elmira Axundova,**
*yazıçı-publisist*

*Azerbaycan Cumhuriyetinin, Nahcivan Özerk Cumhuriyeti ve İsa Habibbeylinin çok değerli katkılarıyla Nahcivan Universiteti hızla gelişmektedir. Nasıl ki, Azerbaycan edebiyat bilginleri,*

*akademik İsa beyin yaptığı çalışmaları ve yayınları kaydedecekler ise; bir gün Nahcivan tarihini yazacak olan tarihçiler de, İsa Bey ve üniversitenin işlevlerini de belgeleriyle ortaya koyacaklardır.*

**İrfan Ünver Nasrattinoğlu,**
*professor-doktor (Türkiyə)*

*İsa Bey için ne yazarsam yazayım onun varlığını, kimliğini, kişiliğini anlatmaya yetmez. O varlığıyla bulunduğu yere, şehre, ülkeye armağan olan insanlardan biridir. O, Azerbaycan biliminin Gemi Qayasıdır, Haça Dağıdır…*

**İrfan Murat Yıldırım,**
*Yrd. Doç. Dr.Celal Bayar Üniversitesi (Türkiyə)*

*Müasir Azərbaycan filoloji fikrinin istiqamətverici simalarından olan akademik İsa Həbibbəylinin həm araşdırıcı, həm dəelm təşkilatçısı kimi gerçəkləşdirdiyi irimiqyaslı fəaliyyəti sözün həqiqi mənasında fədakar alim obrazını ifadə edir. Elmi məktəbləri də məhz bu yüksək mənəvi keyfiyyətə malik olan görkəmli alimlər yarada bilir.*

**Məhərrəm Qasımlı,**
*filologiya elmləri doktoru, professor*

*İsa Həbibbəyli çox geniş mənada düşünən ədəbiyyatşünasdır. Onun əsas mövzusu – şah problemi Mirzə Cəlil yaradıcılığı olsa da, ədəbiyyat tarixinin bütün dövrlərini və inkişaf mərhələlərini əhatə edən tədqiqat əsərləri vardır. Təfsilata varmadan deyə bilərəm ki, İsa Həbibbəylinin bütün əsərlərini yan-yana sıraya düzsək, "Azərbaycanədəbiyyat tarixi: klassik və müasir dövr" adlı çox sanballı bir ədəbiyyat tarixi dərsliyinin ərsəyə gəldiyini görərik... Mən özünəməxsusluq deyilən anlayışı İsa Həbibbəyliyə də şamil edə bilərəm. O, bir insan kimi də yalnız özünə bənzəyir.*

*Ancaq bu özünəməxsusluqda bizim biyət etdiyimiz, sənəti qarşısında baş əydiyimiz böyük ustadların da cizgilərini görürəm.*

**Vaqif Yusifli,**
*filologiya elmləri doktoru*

*Akademik İsa Həbibbəyli bu gün ədəbi, ictimai, kulturoloji fikrimizin görkəmli nümayəndəsi kimi yalnız adlı-sanlı titul, vəzifə daşımır, həm də bu mühiti hərəkətə gətirən və idarə edən bir rəhbər olaraq son dərəcə məsuliyyətli bir missiyanı uğurla həyata keçirir. O, indiki zamanda ədəbiyyatşünaslıqda və ondan kənarda qazandığı bütün nüfuzu, vəzifə və yüksəlişi özünü həsr etdiyi ədəbiyyatşünaslıq elmi ilə yanaşı, həm də bitib-tükənmək bilməyən enerjisinə, sadəliyinə, elmi, ictimai təfəkkürünə borcludur, desək, qətiyyən yanılmarıq. Doğrudan da, Firudin bəy Köçərlidən başlayan peşəkar ədəbiyyatşünaslığımızın hələ elə bir mərhələsi olmamışdır ki, ədəbiyyatşünaslıq bu qədər önə çıxmış olsun, nümayəndəsi cəmiyyət sferasında bütün təbəqələrinin tanıdığı və hörmət etdiyi şəxsə çevrilsin.... Hələ indiyə kimi ədəbiyyatşünaslıq elminin hansısa bir nümayəndəsi İsa Həbibbəyli kimi ədəbi, elmi, siyasi, mədəni, kulturoloji olimpin zirvəsini mövcud statusda fəth edə bilməmişdir.*

*Zaman göstərdi ki, akademik İsa Həbibbəyli ədəbiyyatşünaslığımızın bu günü və gələcəyi ilə bağlı aydın bir proqrama malikdir və bəlkə də ürəyində illərdi gəzdirdiyi bu proqramın mərhələ-mərhələ həyata keçirilməsi üçün var gücü və intellekti ilə yorulmadan çalışır...*

**Bədirxan Əhmədov,**
*filologiya elmləri doktoru, professor*

*İsa bəy Həbibbəyli böyük fikir adamıdır. Böyük ədəbiyyat adamı olmaq bu işin aparıcı tərəfidir. Onun Azərbaycan ədəbiyyatına, Türkiyə yazıçılarına və ümumən dünya ədəbiyyatına həsr olunmuş əsərləri böyük elmi örnəklərdir.*

*Naxçıvan Universitetinin böyük qurucusu İsa Həbibbəyli Bakıda Ədəbiyyat İnstitutunu da yenidən qurmuşdur.*

*Dostluq və insanlıq baxımından İsa Həbibbəyli ortaq həyatımızın nadir hadisəsidir.*

**Ramazan Qorxmaz,**
*professor (Türkiyə)*

*İsa Həbibbəylini yazdıqlarında həmişə təzəlik axtarışlarına təşnə görürük. Mən onun iri formatda 696 səhifəlik "Ədəbi-tarixi yaddaş və müasirlik" adlı kitabına dərindən baxmışam; hər səhifəsi açıq problemlərin açılmamış düyünlərinə aşina... – Hər yerdə bir vurğu və rakurs aşkar-barizdir: təzə fakt axtarıcılığı və ideoloji təzəlik!... İsa Həbibbəylinin qosqocaman Mirzə Fətalidən ədəbiyyatımızın ən cavan yetirməsi Rəşad Məcid yaradıcılığına transfer edən növbəti, "Roman" və poetikası"əsəri də məhz müasirliyi aktualizə etmədə. Onun elmi əsərlərində bugünə müncər olanda "klassik romantik şeir" ənənəsi necə qiymətləndirilirsə, "realist ədəbiyyat"da həzm və "nəzm" olunur... Akademik burda hər şeyi mahiranə ustad kimi isbat edir.*

*Akademik İsa Həbibbəyli ədəbi prosesin genişliyinə açıq və maraqlıdır. Onunla hardan istəsən, necə istəsən, ədəbiyyatın müşkülləri barədə fikir yürütmək olur.*

**Tehran Əlişanoğlu,**
*AMEA-nın müxbir üzvü*

*Müasir Azərbaycan ədəbiyyatşünaslığında həm əsərləri, həm də tuduğu vəzifə ilə aparıcı mövqe sahibi olan akademik İsa HəbibbəyliAzərbaycan ədəbiyyatşünaslığı tarixində özünəməxsus elmi məktəbi olan böyük ədəbiyyatşünasdır. Ona görə elmi məktəb yaradıcısıdır ki, ədəbi-nəzəri fikrimizdə bir çox yeniliklər, ilklər, görüb dəyərləndirmələr, açılan yeni səhifələr, elmi proseslər məhz akademik İsa Həbibbəylinin adı ilə bağlıdır; onun yolunu seçən bir çox mütəxəssislərə birbaşa universitet adutoriyasında, kafedrada və ya dolayısı yolla kitabları, açdığı perspektivlər iləmüəllimlik etmişdir. İsa Həbibbəyli ədəbiyyatşünaslıq məktəbinin əsas xüsusiyyəti zəngin faktlara – arxiv materiallarına, bədii mətnlərə, əlyazmalara və elmi bazaya əsaslanan nəzəri*

*fikirlərin irəli sürülərək əsaslandırılmasıdır. Az-az ədəbiyyatşünası yeni fikirlərinin, irəli sürdüyü ideyaların zənginliyi və əsaslandığı faktların bolluğu ilə İsa müəllimlə müqayisə etmək olar...*

**Tahirə Məmməd,**
*filologiya elmləri doktoru, professor*

*Azerbaycan`da gerçekten iş yapan birkaç insandan biri de İsa Habibbeyli`dir. Onun yüreginde öyle bir vatan ateşi yanıyor ki bir dakika olsun vaktini boşa harcamadan ülkesini tanıtma adına şehirden-şehire, ülkeden-ülkeye elinde bir sevgi meşalesi gibi Azerbaycan`ın adını yükseklere kaldırarak durmadan koşuyor ve çalışıyor.*

*Dünyanın çeşitli dillerine çevrilmiş çok önemli kitapları var. Ama o, "Artık kitaplarımı yazdım,işim bitti" demeden, aynen genç bir talebe hevesiyle olgun bir kalemle dünyanın her yerindeki okuyuculara ulaştırıyor.*

*İşte burda Ziya Paşa`nın da çok doğru olarak dediği gibi insanın kendisine, sözüne değil, yaptığı işine bakılmalıdır ve bence İsa Hebibbeyli gibiler işleriyle kendilerini ispatlamaya, halkımıza, dünyamıza yorulmadan, usanmadan hizmet etmeye devam ediyorlar. Ben klasik Azerbaycan edebiyyatını biraz bilmeme rağmen, İsa Bey`in kaleminden klasiklerin edebi tadını yeniden tattım. Onun kaleminden Azerbaycan ediplerinin başka-başka yanlarını keşfettim ve onların gerçek kimliklerini daha yakından öğrendim.*

*2009 yılının mayıs ayında Nahçıvan`a gittiğimde bana hediye ettiği kitaplar valizimi doldurmuştu ve Türkiye gümrüğünde görevli polis memuru valizimi açarken kitapları alıp baktı ve şaşkınlıkla, "Hepsi sadece bir yazarın yazdıkları kitaplar mıdır?" diye sordu. Gururla, "Evet, hepsi bir adamındır ve hele bundan daha fazlasını yazmıştır" – dedim. Kıskançlıkların, yalanların, birbirini karalamaların baş alıp gittiği zamanımızda insanın kendi halkının bir oğluyla haklı olarak gururlanması nasıl güzel bir duygudur, anlatamam!...*

*...Nahçıvan, Azerbaycan`ımızın yetiştirdiği birbirinden değerli insanlarıyla en verimli bir bölgesidir. Oranın dağları, suları, toprağı ülkemize mayası temiz insanlar yetiştirdi. Onlar hem Nahçıvan`ın hem de Türk dünyasının adını zirvelere taşıdılar. Ordan İsa Hebibbeyli gibi muallimler çıktıkça zirvelerde dalgalanan bayrakların sayısı daha da artacaktır.*

**Orxan Aras,**
*(Almaniya)*

*İsa Hebipbeyli ile her karşılaşdığımda ondan mutlaka yeni şeyler ögreniyorum. Hebipbeyli Azerbaycan Dili ve Edebiyatına ömrünü hasr etmiş bir alimdir. Kanatimce milli edebiyat sınırlarını da aşmayı başarmış, dünya edebiyatının asrımızdakı inşaasına bir tuğla ilave edecek kadar sanat yazılarına da imza atmıştır. Onun Tolstoy müzesi araştırmaları, Cengiz Aytmatovla görüşmeleri, "Edebi-tarihi yaddaş ve müasirlik" adlı eseri, Celil Memedquluzade eserlerinin tüm inceliklerini analiz etmesi, dünyadakı şark ve garp üniversitetlerinin birçoku ile olan alakaları bunun en bariz örnegidir... İsa Hebipbeylinin siyasi hayatını ve dünyanın önemli meselelerti hakkındakı görüşlerini ayrı bir konu yapmak gerekir... Aslında İsa Hebipbeylinin hangi yazısını okursak, her okuyuşumuzda ders alacağımız bir çok bilgiler ile karşılaşırız. Habibbeyli hayat takvimine, bilgiyi, erdemi, güzel ahlakı, kadirşinaslığı, hazırcevaplığı, hocalığıve nezaketi sığdırabilmiş mümtaz bir şahsiyettir.*

**Turqut Ocal,**
*Türkiyə, İqdır Universiteti*

*İsa Həbibbəyli Azərbaycan hüdudlarını çoxdan adlamış alim kimi, xaricdə də layiqli qiymətini alır.*

*İsa Həbibbəylinin şəxsiyyət obrazı konkret bir sahə üzrə məhdudlaşdırıla bilməz.*

*Mənalı ömrünün müdriklik zirvəsində olan İsa Həbib-bəyli*

*bütün varlığı və ruhu ilə yaradıcı insandır. Yüksək alimlik və tədqiqatçılıq keyfiyyəti onun fitrətindən, məqsədə doğru inamla irəliləmək, hədəfə yetişmək əzmindən qaynaqlanır.*

**İxtiyar Hüseynli**
*"Azərbaycan" qəzetinin şöbə redaktoru*

